*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

31 may 2025-ci il №19 (9125) www.muallim.edu.az muallim@media.edu.az

**Qarabağ Universiteti: dirçəlişin akademik zəmini**

# Üç qardaş ölkə lideri

## Müstəqillik Gününü Laçında qeyd etdi



İlham ƏLİYEV

### Bugünkü mərasim Azərbaycan-Türkiyə-Pakistan birliyinin, qardaşlığının növbəti təzahürüdür

İlk növbədə, bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm. Bu bayram günündə bizimlə bərabər olan Türkiyə və Pakistan liderlərinə və onlarla bərabər Azərbaycana gəlmiş qonaqlara "Xoş gəlmisiniz!" deyirəm. Azərbaycan, Türkiyə və Pakistan - üç qardaş ölkə əməkdaşlığı ildən-ilə, gündən-günə gücləndirirlər. Biz yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birimizin yanındayıq, həmrəylik, dəstək göstəririk. Bu gün ikinci üçtərəfli Zirvə görüşündə bir daha bizim strateji əməkdaşlığımız təsdiqləndi. İşğaldan azad edilmiş Laçında, Şərqi Zəngəzurda iki qardaş ölkənin liderlərinin iştirakı ilə keçirilən bugünkü mərasim Azərbaycan-Türkiyə-Pakistan birliyinin, qardaşlığının növbəti təzahürüdür.



Rəcəb Tayyib ƏRDOĞAN

### Sabitlik abidəsi kimi yüksələn Azərbaycanın uğurları ilə hamımız qürur duyuruq

Sabitlik abidəsi kimi yüksələn Azərbaycanın uğurları ilə hamımız qürur duyuruq. Otuz ildən sonra əsarətdən azad olunan Qarabağ üçün artıq uğur, sülh və inkişaf hekayəsi yazmaq zamanıdır. Bu gün keçmişdə yaşadığımız ağrılardan dərs alaraq davamlı sülhün bərqərar olmasını, etimadın və mehriban qonşuluq münasibətlərinin qurulmasını hədəfləyirik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sülhün də memarı olaraq adını tarixə yazdıracağına inanırıq. Bu fikirlərlə Can Azərbaycan xalqına, səmimi qonaqpərvərliyə görə laçınlı qardaşlarıma və buraya təşrif gətirməklə bizi son dərəcə sevindirən Pakistanın Baş naziri, dəyərli dostum cənab Şahbaz Şərifə təşəkkürlərimi ifadə edirəm.



Məhəmməd Şahbaz ŞƏRİF

### Bu gün bu gözəl məkanda, füsunkar dağlıq ərazidə yerləşən Laçın şəhərində olmağımdan çox məmnunam

Əziz qardaşım İlham Əliyev, nə gözəl haldır ki, bu gün biz Azərbaycanın Müstəqillik Gününü bir yerdə qeyd edirik. Həmçinin bu gün - 1998-ci il mayın 28-də Pakistan nüvə dövlətinə çevrilmişdir. Bu səbəbdən, bu gün bu tədbirdə iştirak etmək mənim üçün çox böyük şərəfdir. Mən səmimi-qəlbdən əziz qardaşım, Prezident İlham Əliyevi və bizim azərbaycanlı bacı və qardaşlarımızı təbrik edirəm. Bu gün burada olmaq mənim üçün çox böyük şərəfdir. Bu gün bu gözəl məkanda, füsunkar dağlıq ərazidə yerləşən Laçın şəhərində olmağımdan çox məmnunam...

Yaşasın Pakistan-Azərbaycan-Türkiyə qardaşlığı!



# "Yeniləşən Azərbaycana yeni məktəb"

## Prezident İlham Əliyev İsmayıllı şəhərində "Talıstan" liseyinin binasının açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə İsmayıllı şəhərində inşa olunan internat tipli "Talıstan" liseyinin binasının açılışında iştirak edib.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov dövlətimizin başçısına təhsil ocağında yaradılmış şərait barədə məlumat verdi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkəmizin bir çox regionlarında beynəlxalq tələblərə cavab verən yeni məktəb binalarının inşasına, onların müasir avadanlıqla təchiz olunmasına xüsusi diqqət yetirilir, bir sıra köhnə məktəb binalarının əsaslı təmiri istiqamətində mühüm işlər görülür.

**Ardı səh. 2**

## Şuşada beynəlxalq uşaq yaradıcılıq festivalı keçiriləcək




## Keyfiyyətli təhsil mühiti:

### lisey və gimnaziyaların uğur yolu

Bax səh. 7



# "Yeniləşən Azərbaycana yeni məktəb"



## Prezident İlham Əliyev İsmayıllı şəhərində "Talıstan" liseyinin binasının açılışında iştirak edib

**Əvvəli səh.1**

1296 şagird yerlik lisey də "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində inşa olunub. Dörd mərtəbədən və 5 korpusdan ibarət binada 56 sinif otağı, kimya, fizika və biologiya laboratoriyaları, informatika, texnologiya, gənclərin çağırışaqədərki hazırlıq kabinetləri, kitabxana, 300 yerlik akt zalı, idman zalı və yeməkxana yaradılıb.



Bu layihənin icrası Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində təhsil sahəsinə ayrılan diqqətin göstəricisidir. Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fond Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyənləşdirilmiş təhsilin inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşıb, bu istiqamətdə bir neçə vacib layihə həyata keçirib. Müasir məktəblərin qurulması həm də Azərbaycan dövlətinin prioritetləri sırasında başlıca yer tutur. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsində olduqca mühüm rol oynayır.



"Talıstan" liseyində yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısına son illərdə rayonda həyata keçirilən sosial-iqtisadi layihələr, o cümlədən 2020-2025-ci illərdə istifadəyə verilən istehsal müəssisələri və istirahət mərkəzləri barədə məlumat verildi. Həmin dövrdə rayonda fəaliyyətə başlamış bu obyektlərdə 400-ə yaxın iş yeri açılıb.

Prezident İlham Əliyevə rayonun Tircan kəndində su istehsalı müəssisəsinin inşası ilə bağlı məlumat verildi. İllik istehsal gücü 25 milyon litr olan müəssisədə 80 nəfər işlə təmin ediləcək.

Qeyd edək ki, ölkəmizin turizm mərkəzlərindən biri olan İsmayıllı rayonu son illərdə sürətlə inkişaf edib. İndiyədək dövlətimizin başçısı bu rayonda 10 dəfə olub. Azərbaycan Prezidentinin İsmayıllıya hər səfəri rayonun ictimai-siyasi həyatında mühüm hadisəyə çevrilməklə, yeni sosial-iqtisadi inkişaf mərhələsinin təməlini qoyub. Bütün bunlar rayonda aparılan tikinti-quruculuq işlərinin, məhsul buraxılışının, sənaye və kənd təsərrüfatı məhsulunun həcmində, yeni iş yerlərinin açılmasında özünü aydın göstərir.

# Təhsil tələbə krediti üçün müraciət edənlərin çoxu qadınlardır

## Təkcə bu il qadın tələbələrin etdiyi 14898 müraciətdən 12745-i rəsmiləşdirilib

Təhsil Tələbə Krediti Fonduna qadınlar daha çox müraciət edirlər. "Azərbaycan müəllimi"nin sorğusuna cavab olaraq qurumdan bildirilib ki, fondun təqdim etdiyi həm sosial, həm də standart növ təhsil kreditlərinə olan müraciət göstəricilərində qadınlar daha fəaldır. Belə ki, bu tədris ili başlayandan fonda 8148 müraciət kişi tələbələrdən daxil olub və bu müraciətlərin 6442-si müsbət cavablandırılıb. Qadın tələbələrin etdiyi 14898 müraciətdən 12745-i rəsmiləşdirilib.

Təhsil Tələbə Krediti Fondunun ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Gülnar Zeynalova qəzetimizə məlumat verib ki, ümumiyyətlə, təhsil tələbə krediti təqdim edildiyi ilk ildən müraciətlərin də, kredit müqaviləsi rəsmiləşdirilənlərin də arasında qadınlar çoxluq təşkil edib: "Fonda məxsus elektron portala 2021/2022-ci tədris ilində kişi tələbələrdən 5178, qadın tələbələrdən isə 5444 müraciət daxil olub. Həmin müraciətlər arasında müsbət cavab alan 3041 müqavilə kişi, 3797 müqavilə qadın tələbələrlə rəsmiləşdirilib. 2022/2023-cü tədris ilində kişi tələbələrlə 5303, qadın tələbələrlə isə 7427 təhsil tələbə krediti rəsmiləşdirilib.

Ötən dərs ilində rəqəmlər daha da artıb. Kişilərdən daxil olan 8054 müraciətdən 6517-sinə müsbət cavab verilibsə, qadınların 12309 müraciətinin 10654-ü kredit müqaviləsi bağlanması ilə nəticələnib".



Regionlar üzrə aparılan təhlillər də maraqlıdır: "Ölkəmizin 14 iqtisadi rayonu üzrə təhsil krediti alan tələbələr arasında da qadınlar üstünlük təşkil edib. Ən yüksək göstərici Bakı iqtisadi rayonu üzrə olsa da, işğaldan azad olunmuş əraziləri əhatə edən Şərqi Zəngəzur iqtisadi rayonunda da kredit müraciətlərində artım müşahidə olunub. Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarını əhatə edən bu bölgədə "Böyük Qayıdış" proqramı çərçivəsində təhsilin dəstəklənməsi və gender balansının qorunması strateji prioritetdir".

2021-2025-ci illəri əhatə edən dövrdə Təhsil Tələbə Krediti Fonduna elektron portal üzərindən ümumilikdə 70000-dən çox müraciət daxil olub. İndiyədək 60000-ə yaxın müraciət edənin təhsil tələbə krediti müqaviləsi rəsmiləşdirilib.

Rəsmiləşmiş kredit müqavilələrinin bölgüsünə əsasən, 34050, yəni təhsil tələbə krediti müqavilərinin 61.51 faizi qadın tələbələrlə, 21303-ü, yəni 38.49 faizi kişi cinsindən olan tələbələrlə rəsmiləşdirilib. Gülnar Zeynalovanın sözlərinə görə, bu göstəricilər qadınların təhsilə cəlb olunmasında dövlət siyasəti və sosial dəstək alətlərinin effektiv nəticə verdiyini göstərir: "Təhsil tələbə krediti almış qadınların sayca çoxluq təşkil etməsi, onların ailədə, cəmiyyətdə və əmək bazarında daha aktiv iştirakının təminatıdır. Təhlillərə əsasən, qadınların müraciət və rəsmiləşdirilmiş kreditlərdəki faiz üstünlüyü onların təhsilə olan marağının, məqsədyönlü yanaşmasının və sosial dəstək mexanizmlərindən istifadədə daha fəal olmasının göstəricisidir. Bu, həm də cəmiyyətimizdə qadınların rolu və təhsilə münasibətində müsbət dəyişikliklərin baş verdiyini göstərir".

**Ruhiyyə DAŞSALAHLI**

# Əlaqələndirmə Qərargahının növbəti iclası Ağdam şəhərində keçirilib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası mayın 23-də Ağdam şəhərində keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli inkişaf strategiyasını müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlərin davam etdirildiyini bildirib.

Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində Ağdam rayonu da daxil olmaqla, işğaldan azad olunmuş bütün ərazilərin sürətlə dirçəldiyini və inkişaf etdiyini diqqətə çatdıran Qərargah rəhbəri deyib ki, burada dağıdılmış infrastruktur bərpa olunur, kəndlər və şəhərlər yenidən qurulur, həyat getdikcə daha çox canlanır. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 500-dən çox tədbirdə iştirak edib, müxtəlif təyinatlı 159 layihənin təməlini qoyub, 133 infrastruktur obyektinin açılışını edib.



Bildirilib ki, Böyük Qayıdış proqramının uğurlu icrası və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətində mühüm işlər görülür, işğaldan azad olunmuş ərazilərdəki 14 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin qayıdışı artıq təmin edilib. Bütövlükdə hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 43 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, dayanıqlı məskunlaşmaya nail olmaq üçün geri qayıdan keçmiş məcburi köçkünlərin məşğulluq məsələlərinin həlli əsas hədəflərdən biridir. Bu məqsədlə kənd təsərrüfatı sahəsində fəaliyyətin genişləndirilməsi, biznes mühitinin stimullaşdırılması və iqtisadi fəallığın təşviqi istiqamətlərində zəruri tədbirlər görülür. Artıq Zəngilan rayonunun Ağalı kəndində sakinlərlə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədilə istifadəyə verilməsi üçün icarə müqavilələri bağlanır, işğaldan azad olunmuş ərazilərdə yaradılmış sənaye məhəllələrində sahibkarlıq fəaliyyəti genişləndirilir və investisiyalar cəlb edilir.

Qərargah rəhbəri işğaldan azad edilmiş ərazilərdə şəhər-kənd inteqrasiyasının gücləndirilməsi və regionların digər ərazilərlə dayanıqlı əlaqəsinin təmin olunması məqsədilə nəqliyyat infrastrukturunun qurulması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini qeyd edib. Hazırda ümumi uzunluğu 2644 kilometrə çatan 40 avtomobil yolunun inşası davam etdirilir, uzunluğu 224,1 kilometr olan 7 yolda işlər artıq yekunlaşıb.

İşğaldan azad edilmiş ərazilərin inkişafı və yeni yaşayış məntəqələrinin salınması məsələlərinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu xatırladan Samir Nuriyev bu prosesin yalnız fiziki məkanların qurulması ilə məhdudlaşmadığını, eyni zamanda, sosial, iqtisadi, ekoloji və hüquqi aspektləri özündə birləşdirən çoxşaxəli və kompleks yanaşmanı tələb edən bir proses olduğunu vurğulayıb.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində, habelə Proqram çərçivəsində əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi, nəqliyyat infrastrukturunun yaradılması, sərnişindaşıma və rabitə xidmətlərinin təşkili, ərazilərdə şəhərlərin və digər yaşayış məntəqələrinin yenidən qurulması və bərpası sahələrində görülən işlər barədə məruzələr dinlənilib. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin ərazilər üzrə xüsusi nümayəndəliklərinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə məlumatlar təqdim edilib.

İclasın sonunda Qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinə mühüm əhəmiyyət verdiyini bildirib, dövlətimizin başçısının qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində müvafiq tapşırıqları iştirakçıların diqqətinə çatdırıb.

Səfər çərçivəsində Ağdam şəhəri ərazisində bir sıra obyektlərə, o cümlədən Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinə, Ağdam Muğam Mərkəzinə və Ağdam İmarət Kompleksinə baxış keçirilib.

İnşasına ötən ildən başlanılmış 2-ci yaşayış məhəlləsi ilə tanışlıq çərçivəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi tərəfindən qeyd olunub ki, hazırda 11 kvartalda 66 binanın tikinti işləri davam etdirilir. Məhəllədə ümumilikdə 60 yaşayış, 6 qeyri-yaşayış binası olmaqla, 1268 mənzilin, həmçinin qazanxananın, uşaqlar üçün əyləncə mərkəzinin, idman meydançalarının inşası nəzərdə tutulur.

Daha sonra Ağdam Cümə məscidi ziyarət edilib. İşğal dövründə - 2000-ci il mayın 9-da Ümummilli Lider Heydər Əliyevə təqdim olunmuş daş parçasının aid olduğu məscid Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilib. Məscidin qırıq minarəsi və içindəki daşları, giriş qapısı bərpa olunub, fasadı tarixi görkəminə uyğun restavrasiya edilib.

Sonda dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanı ilə yaradılmış Ağdam Sənaye Parkına yola düşən Əlaqələndirmə Qərargahının üzvləri burada sahibkarlıq subyektləri üçün təmin edilmiş şəraitlə tanış olublar. Sənaye Parkı barədə məlumat verən iqtisadiyyat naziri vurğulayıb ki, 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı rezidentlərin sayına görə ölkədə ikinci sənaye parkıdır. Burada ümumilikdə 31 olmaqla, 27 müəssisə rezident, 4 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Sənaye Parkında divar kağızının istehsalçısı olan "Mister Decor", rabitə və işarəvermə, mikroprosessor mərkəzləşmə sistemi avadanlığı istehsalçısı olan "Rail Trans Service", orta və aşağıgərginlikli qurğu, monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün şarjdoldurma avadanlığı istehsalçısı olan "Eel Electric" və təhlükəsizlik ayaqqabıları, poliuretan çəkmələr istehsalçısı olan "BAFCO İnvest" məhdud məsuliyyətli cəmiyyətlərinin fəaliyyəti barədə məlumatlar təqdim olunub.

# Emin Əmrullayev ADPU–CVU ikili diplom proqramının IV məzun buraxılışında iştirak edib

Mayın 29-da Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) ilə ABŞ-nin Corc Vaşinqton Universitetinin (CVU) birgə ikili diplom magistr proqramının dördüncü məzun buraxılışı keçirilib.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, CVU-nun Təhsil və İnsan İnkişafı Məktəbinin dekanı Maykl Foyer və məktəbin professoru Kolin Qrin, habelə Elm və Təhsil Nazirliyi, Dövlət Neft Fondunun məsul əməkdaşları, ADPU, Corc Vaşinqton Universitetinin nümayəndələri, proqramın məzunları iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən ADPU-nun rektoru Cəfər Cəfərov məzunları təbrik edib, onlara uğurlar arzulayıb. Rektor çıxışında qeyd edib ki, təhsil siyasəti və idarəetməsi ixtisası üzrə ikili diplom magistr proqramının builki məzunlarının sayı 37 nəfərdir. İlk dəfə 2020-ci ildə qəbul aparılan proqram üzrə əvvəlki 3 il ərzində 83 nəfər məzun olub və builki məzunlarla birgə ümumi məzun sayı 120 nəfərə çatır. Rektor məzunların proqram sayəsində əldə etdikləri bilik və bacarıqların Azərbaycan təhsil sisteminin inkişafında böyük rol oynayacağına əminliyini ifadə edib.






Daha sonra çıxış edən Corc Vaşinqton Universitetinin Təhsil və İnsan İnkişafı Məktəbinin dekanı Maykl Foyer proqramın uğurlarından bəhs edərək qeyd edib ki, Azərbaycan və ABŞ arasında təhsil əməkdaşlığı artıq strateji mahiyyət daşıyır və bu cür akademik tərəfdaşlıqlar beynəlxalq elmi mübadilənin inkişafına töhfə verir.

Tədbirdə iştirak edən elm və təhsil naziri Emin Əmrullayev çıxışında proqramın dövlət təhsil siyasətindəki yerini xüsusi qeyd edib. Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin təsdiqlədiyi “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində bir neçə ikili diplom proqramı həyata keçirilir və bu proqramların artıq ciddi müsbət təsirləri müşahidə olunur. Bu proqramlardan mindən çox şəxs artıq məzun olub və onlar həm şəxsi inkişaf, həm də ölkənin gələcəyi üçün ciddi töhfə vermək imkanı qazanıblar.

Emin Əmrullayev çıxışında Dövlət Neft Fonduna da təşəkkürünü çatdıraraq bildirib ki, bu təşəbbüslər Azərbaycanın uzun illər inkişafına böyük töhfə vermiş neft gəlirlərinin insan sərvətinə, yəni “qara qızılın insan qızılına çevrilməsi” konsepsiyası çərçivəsində görülən işlərin bariz nümunəsidir. Nazir məzunların iki müxtəlif təhsil sisteminin bilik və təcrübəsini birləşdirərək müasir idarəetmə və tədris modellərinin yerli təhsil sistemində tətbiqinə töhfə verəcəklərini bildirib.

Sonda təhsil siyasəti və idarəetməsi üzrə ADPU-CVU birgə ikili diplom magistr proqramının 2023-2024-cü tədris ilinin məzunlarına fəxri diplomlar təqdim olunub.

Rəsmi mərasim ümumi xatirə fotosunun çəkilməsi ilə yekunlaşıb.

Xatırladaq ki, ikili diplom proqramı Elm və Təhsil Nazirliyi, Dövlət Neft Fondu və Dövlət Proqramı İdarəetmə Qrupunun dəstəyi ilə həyata keçirilir.

# Universitetlərarası əməkdaşlıq müzakirə edilib



## Emin Əmrullayev Koç Universitetinin rektoru ilə görüşüb

Mayın 27-də elm və təhsil naziri Emin Əmrullayev Koç Universitetinin rektoru Metin Sitti ilə görüşüb.

Görüş çərçivəsində universitetlərarası əməkdaşlıq, o cümlədən elm və ali təhsil sahəsində Koç Universiteti ilə inkişaf perspektivləri müzakirə edilib.

# Elm və Təhsil Nazirliyinin nümayəndə heyəti “Microsoft” İnnovasiya Mərkəzində olub



28-29 may 2025-ci il tarixlərində Dubay şəhərində yerləşən “Microsoft” İnnovasiya Mərkəzində Elm və Təhsil Nazirliyinin nümayəndə heyəti ilə “Microsoft”un regional komandası arasında süni intellekt və təhsil sahəsində əməkdaşlıq imkanlarına dair görüşlər keçirilib.

Nümayəndə heyətinə elm və təhsil nazirinin müavini Həsən Həsənli rəhbərlik edib.

Görüşlər zamanı süni intellekt texnologiyalarının təhsildə tətbiqi, məlumatların idarə olunması və təhsilə uyğunlaşdırılmış böyük dil modellərinin (LLM for Education) inkişafı mövzularında ətraflı fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində “Microsoft”un təhsildə transformasiya sahəsindəki yanaşması təqdim edilib, Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi təşəbbüslər müzakirə olunub. Eyni zamanda süni intellektin idarəetmə və tədris proseslərində praktiki istifadəsinə dair real nümunələr göstərilib.

Görüşlərdə təhsilə yönəlik böyük dil modellərinin (LLM) yaradılması üzrə texniki planlama sessiyaları təşkil olunub, etik və məsuliyyətli süni intellekt istifadəsinə dair "Microsoft"un yanaşması təqdim edilib.

Görüşlər nəticəsində təhsilin rəqəmsal transformasiyasının sürətləndirilməsi, süni intellektin inteqrasiyası və proseslərin inkişafı baxımından yanaşmalar əlaqələndirilib.

# Elm və təhsil naziri Astarada vətəndaşları qəbul edib

Mayın 30-da elm və təhsil naziri Emin Əmrullayev Astara şəhərində vətəndaşları qəbul edib.

Qəbulda Astara, Lənkəran, Lerik, Masallı, Cəlilabad və Yardımlı sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar xarici diplomların tanınması, direktorların işə qəbulu, məktəb tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.



# Nazir müavini Göygöldə olub

## Firudin Qurbanov səfər çərçivəsində bir sıra görüş, təhsil müəssisələrinə baxış və vətəndaş qəbulu keçirib

Mayın 29-da elm və təhsil nazirinin müavini Firudin Qurbanov Göygöl rayonuna səfəri çərçivəsində bir sıra görüş, təhsil müəssisələrinə baxış və vətəndaş qəbulu keçirib.

İlk olaraq Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev və Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimovla birgə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Sonra nazir müavini Göygöl rayon Üçtəpə kənd Ə.Məmmədov adına tam orta məktəbin pedaqoji kollektivi və şagirdləri ilə görüşüb. Məktəbdə mövcud şəraitlə tanış olan nazir müavini tədris prosesini izləyib, şagird və müəllimlərlə səmimi söhbət aparıb.

Daha sonra Firudin Qurbanov Göygöl şəhər 4 nömrəli körpələr evi — uşaq bağçasında olub. Burada müəssisənin fəaliyyəti və mövcud şəraiti ilə yaxından tanış olub.

Nazir müavini həmçinin regionda fəaliyyət göstərən təhsil müəssisələrində çalışan gənc müəllimlərlə görüş keçirərək tədrisin keyfiyyəti ilə bağlı müzakirələr aparıb, təhsil işçilərinin təklif və fikirlərini dinləyib.

Səfər çərçivəsində Firudin Qurbanov vətəndaş qəbulu da keçirib. Müraciətlər əsasən işlə təmin olunma və digər məsələləri əhatə edib. Nazir müavini vətəndaşlar tərəfindən edilən hər bir müraciətin operativ olaraq araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.





## 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü



# Siz fəxr etməlisiniz ki, qalib xalqımızın şərəfli və qürurverici tarixinin şahidlərisiniz

**Siz uşaqlar xoşbəxtsiniz ki, yeni əsrə və yeni minilliyə müstəqil dövlət olaraq qədəm qoymuş ölkəmizdə dünyaya göz açmısınız. Siz fəxr etməlisiniz ki, qalib xalqımızın şərəfli və qürurverici tarixinin şahidlərisiniz... İnanıram ki, siz mənən zəngin nəsil kimi azərbaycançılıq ruhunda böyüyərək boya-başa çatacaq, respublikamızın gələcək inkişafı və uğurlar qazanması naminə töhfələrinizi əsirgəməyəcəksiniz.**

**Prezident İlham Əliyevin Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunun iştirakçılarına müraciətindən (18 noyabr 2021-ci il)**

# Uşaqlar sevgì ìlə əhatə olunarlarsa...

Dünyanın bir çox ölkəsində olduğu kimi, Azərbaycanda da 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur.

1950-ci il iyunun 1-də BMT Baş Assambleyasının qərarı ilə Uşaqların Beynəlxalq Müdafiəsi Günü təsis edilib. Həmin tarixdə keçirilən “Qadınların Beynəlxalq Konfransı”nda uşaq hüquqlarının təmin olunması ilə bağlı mühüm təkliflər irəli sürülüb və 1 iyun tarixinin uşaqlara həsr olunmasına dair qərar qəbul edilib.

Azərbaycanda uşaqların müdafiəsi və onlara qayğı göstərilməsi istiqamətində mühüm addımlar atılıb. Ölkəmizdə uşaqların sosial və hüquqi müdafiəsi məsələləri Konstitusiya, qanunvericilik və normativ-hüquqi aktlarla tənzimlənir. Uşaq hüquqlarının qorunmasına dair hüquqi baza formalaşdırılıb. 1998-ci il mayın 19-da qəbul edilən “Uşaq Hüquqları Haqqında” Qanun və digər normativ sənədlər bu sahədə əsas hüquqi çərçivəni müəyyən edir.

Hər bir ölkənin sabahı, cəmiyyətin gələcəyi uşaqların sağlam, təhsilli və xoşbəxt böyüməsindən asılıdır. 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü, dünyanın hər yerində uşaqların hüquqlarının qorunması, rifahlarının təmin olunması və gələcəyin dəyərli fərdlərinin yetişdirilməsi üçün çağırış günüdür. Bu gün, eyni zamanda, uşaqların həyat şəraitinin yaxşılaşdırılması üçün bir fürsətdir.

Uşaqların müdafiəsi yalnız onların fiziki sağlamlığını qorumaqla bitmir. Bu anlayış onların hüquqlarının, təhsil və inkişaf imkanlarının təmin olunmasını, zorakılıq və istismardan qorunmasını, sağlam və təhlükəsiz mühitdə böyümələrini və potensiallarını tam reallaşdırmalarına imkan yaradılmasını da əhatə edir.

1989-cu ildə BMT tərəfindən qəbul edilən Uşaqların Hüquqları Konvensiyası dünyada uşaqların hüquqlarını müdafiə edən ən mühüm beynəlxalq sənəddir. Bu sənəd hər bir uşağın sahib olduğu fundamental hüquqları və onların inkişafı üçün zəruri tədbirləri əhatə edir.

Uşaqların keyfiyyətli təhsil alması onların gələcəyinin təməlini təşkil edir. Təhsil yalnız savadlılıq deyil, həm də sosial və emosional baxımdan inkişafı təmin edir, uşaqlara həyatda qarşılaşacaqları çətinliklərlə mübarizə bacarığı qazandırır. Eyni zamanda, sağlamlıq sahəsində də uşaqların hüquqlarının qorunması, keyfiyyətli tibbi xidmət göstərilməsi və onların sağlam mühitdə böyümələri üçün zəruri şəraitin yaradılması dünyada prioritet məsələlərdəndir.

Təəssüf ki, dünyada bəzi uşaqlar hələ də zorakılıq və istismara məruz qalırlar. Bu cür hallar onların fiziki və psixoloji sağlamlığına ağır zərbə vurur və gələcəkdə cəmiyyət üçün faydalı fərdlərə çevrilmələrini çətinləşdirir. Bu səbəbdən uşaqların təhlükəsizliyi və hüquqlarının müdafiəsi üçün daha effektiv qanunvericilik və təhsil sistemlərinin tətbiqi zərurəti ortaya çıxır.

1 iyun həm də uşaqlar arasında mövcud olan sosial bərabərsizliklərin aradan qaldırılması üçün bir xatırlatmadır. Bəzi uşaqlar təhsil imkanlarından məhrumdurlar, digərləri isə müharibələr, təbii fəlakətlər və yoxsulluq səbəbindən çətin və qorxulu şəraitdə yaşayırlar. Biz unutmamalıyıq ki, hər bir uşaq bərabər hüquqa malikdir, onların hamısı təhsil almağa, xoşbəxt böyüməyə və öz gələcəklərini qurmağa layiqdirlər.

Uşaqlar bizim ən qiymətli sərvətimizdir. Onlar təkcə bu günümüzü deyil, sabahımızı da işıqlandıran ümidlərdir. Hər bir ölkənin və cəmiyyətin inkişaf səviyyəsi uşaqlara göstərdiyi diqqət və qayğı ilə ölçülür. Biz uşaqlarımıza sağlamlıq, təhsil, sevgi və təhlükəsiz bir dünya bəxş etməliyik ki, onlar da gələcəkdə bu dünyanı daha yaxşı idarə edə bilsinlər.

1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü hər birimizi uşaqların hüquqlarına hörmətlə yanaşmağa, onların təhsili və rifahı üçün fəal addımlar atmağa və dünyada heç bir uşağın istismara məruz qalmaması üçün birləşməyə çağırır. Çünki yalnız sağlam, xoşbəxt və azad uşaqlar gələcəyin güclü və inkişaf etmiş cəmiyyətini quracaqlar.

Uşaqlar bizim gələcəyimizdir və ölkəmizin sabahı onların əlindədir.

**Sehran SƏFƏROV,**
*ATİAHİ Xətai Rayon Komitəsinin sədri*

# Azərbaycan və Özbəkistan arasında Birinci Rektorlar Forumu keçirilib

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 13-cü iclasında nəzərdə tutulan tapşırıqların icrası və elm, ali təhsil sahəsində əlaqələrin genişləndirilməsi məqsədilə 28-29 may tarixlərində Əndican şəhərində “Azərbaycan-Özbəkistan: ali təhsildə əməkdaşlığın inkişafında prioritet istiqamətlər” mövzusunda Birinci Rektorlar Forumu keçirilib.

Tədbir elm və təhsil nazirinin müavini İdris İsayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Özbəkistana səfəri çərçivəsində təşkil olunub. Forumda hər iki ölkənin ali təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.

Forumun açılışında çıxış edən Özbəkistanın ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini Şahrux Daliyev və Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini İdris İsayev iki ölkə arasında elm və ali təhsil sahəsində əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb, forumun universitetlərarası tərəfdaşlıqların genişlənməsinə

## Elm və təhsil nazirinin müavini İdris İsayevin rəhbərlik etdiyi nümayəndə heyəti Forumda iştirak edib



və birgə layihələrin təşviqinə töhfə verəcəyini bildiriblər.

Sessiyalar zamanı ikili diplom proqramlarının yaradılması, tələbə və müəllim mübadiləsi, birgə elmi-tədqiqatlar və beynəlxalq reytinqlərdə irəliləyiş kimi mövzular müzakirə olunub.

Forum çərçivəsində Azərbaycan universitetləri (ADNSU, ADİU, ADU, ADPU, ADMİU, AzTU, AzMİU, ATU, BDU, BMU, BSU, LDU, MDU, NDU, QU, SDU, BANM) ilə Özbəkistanın aparıcı ali təhsil müəssisələri arasında əməkdaşlıq sənədləri imzalanıb, yeni layihələrin əsasını qoyan razılaşmalar əldə olunub.

# İdris İsayev Özbəkistanın ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini ilə görüşüb

Mayın 29-da Özbəkistan Respublikasının Əndican şəhərində “Azərbaycan—Özbəkistan: ali təhsildə əməkdaşlığın inkişafında prioritet istiqamətlər” mövzusunda keçirilən Birinci Rektorlar Forumu çərçivəsində elm və təhsil nazirinin müavini İdris İsayev Özbəkistanın ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini Şahrux Daliyev ilə görüşüb.

Görüş çərçivəsində universitetlərarası əməkdaşlıq, o cümlədən elm və ali təhsil sahəsində inkişaf perspektivləri müzakirə edilib.




# Özbəkistanda “Study in Azerbaijan” təhsil sərgisi

Azərbaycan və Özbəkistan arasında elm və ali təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə 27-31 may tarixlərində Elm və Təhsil Nazirliyinin və ali təhsil müəssisələrinin rəhbər heyətinin Özbəkistana səfəri çərçivəsində Daşkənddə “Study in Azerbaijan” təhsil sərgisi təşkil olunub.

Sərgi Azərbaycan—Özbəkistan Hökumətlərarası Komissiyasının 13-cü iclasının protokolunda nəzərdə tutulan tapşırıqların icrası istiqamətində atılmış mühüm addımlardan biridir.

Sərgidə ölkəmizi 17 ali təhsil müəssisəsi təmsil edib. Azərbaycan universitetlərinin stendlərində iştirakçılara müxtəlif ixtisaslar üzrə təhsil imkanları, təqaüd proqramları və ölkəmizdə tələbə həyatı barədə ətraflı məlumat təqdim olunub.

Açılış mərasimində Özbəkistanın ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini Şahrux Daliyev, elm və təhsil nazirinin müavini İdris İsayev və Azərbaycanın Özbəkistandakı fövqəladə və



səlahiyyətli səfiri Hüseyn Quliyev çıxış ediblər. Çıxış edənlər elm və ali təhsilin beynəlmiləlləşməsi kontekstində iki ölkə arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb, sərginin təhsil və mədəni əlaqələrin inkişafına töhfə verəcəyinə əminliklərini ifadə ediblər.

Qeyd edək ki, sərginin əsas məqsədi mədəniyyətlərarası əlaqələri gücləndirmək, tələbə mübadiləsini təşviq etmək və Azərbaycanda təhsil alan xarici tələbələrin sayını artırmaqdır.

# Müdafiə sənayesi üçün kadr hazırlığı sahəsində mühüm sənəd imzalanıb

Elm və Təhsil Nazirliyi (ETN) ilə Müdafiə Sənayesi Nazirliyi (MSN) arasında müdafiə sənayesi üçün kadr hazırlığı sahəsində Əməkdaşlıq Memorandumunun imzalanması ilə əlaqədar mayın 26-da Azərbaycan Texniki Universitetində (AzTU) tədbir keçirilib. Tədbirdə elm və təhsil nazirinin müavini İdris İsayev, müdafiə sənayesi nazirinin müavini Hidayət Əzimov, AzTU-nun rektoru Vilayət Vəliyev, MSN-in tabeliyində olan “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Emil İbrahimov, MSN-in və ETN-in digər rəhbər işçiləri, universitetin müəllim və professor heyəti, həmçinin akademik göstəriciləri yüksək olan bir qrup tələbə iştirak edib.



Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Universitetin Heydər Əliyev Mərkəzində davam edən imzalanma tədbirində elm və təhsil nazirinin müavini İdris İsayev çıxış edərək müasir təhsil sistemi, bu sahədə aparılan islahatlar, ali məktəblərin bakalavriat, magistratura və doktorantura pillələrinə qəbul proqramları haqqında ətraflı məlumat verib. Nazir müavini imzalanacaq memorandumla ETN və MSN arasındakı əməkdaşlığın yeni mərhələyə qədəm qoyacağını qeyd edib. İdris İsayev müasir təhsilvermənin tələbləri nəzərə alınmaqla hazırlanmış çoxistiqamətli əməkdaşlığı ehtiva edən sənədin müdafiə sənayesi üzrə kadr hazırlığına olan tələbatın, o cümlədən yeni texnologiyalar sahəsində çağdaş bilik və bacarıqlara malik yüksəkixtisaslı mühəndis kadr hazırlığının təmin edilməsində xüsusi rol oynayacağını vurğulayıb.

Müdafiə sənayesi nazirinin müavini Hidayət Əzimov öz növbəsində müdafiə sənayesi üzrə ixtisaslı kadr hazırlığı, sahəvi mütəxəssislərin təkmilləşdirilməsi və innovativ mühəndisliyin daha da inkişaf etdirilməsi məqsədilə ETN və onun strukturuna daxil olan elmi-tədqiqat institutları, eləcə də ali və peşə təhsili müəssisələri ilə səmərəli əməkdaşlıq edildiyini, bu sahədə əlaqələrin genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Hidayət Əzimov memorandumun ölkəmizin prioritet inkişaf istiqamətləri üzrə kadrlara olan tələbatının, o cümlədən yeni texnologiyalar sahəsində yüksəkixtisaslı mühəndislərin hazırlığının təmin edilməsinə geniş imkanlar yaratdığını, müasir dövrdə sənaye-universitet əlaqələrinin inkişafı baxımından bu sənədin mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

AzTU-nun rektoru Vilayət Vəliyev isə çıxışında rəhbərlik etdiyi ali təhsil müəssisəsi ilə MSN arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd edib. O, Nazirlər Kabinetinin müvafiq qərarı və MSN-in təşəbbüsü əsasında 2012-ci ildən AzTU-da Xüsusi texnika və texnologiya fakültəsinin uğurla fəaliyyət göstərdiyini, təhsil müddətində yüksək nailiyyətlər əldə etmiş məzunların əksəriyyətinin MSN-in müəssisələrində müvəffəqiyyətlə çalışdıqlarını vurğulayıb. Rektor müdafiə sənayesi üzrə kadr hazırlığı ilə bağlı çağdaş dövrün tələblərinə uyğun yeni strategiya hazırlandığını diqqətə çatdırıb.

Sonra Əməkdaşlıq Memorandumu imzalanıb.

Tədbirin sonunda qonaqlar AzTU tərəfindən müasir tədris-təhsil proqramlarının həyata keçirilməsi məqsədilə ali təhsil müəssisəsinin maddi-texniki bazasının əsasında yaradılmış texnoloji imkanlar və perspektiv layihələrlə tanış olublar.



# Vətənpərvər gənclərin yetişdirilməsində müəllimlərimizin fədakarlıqları təkcə təhsil tariximizə yox, həm də qəhrəmanlıq salnaməsinə yazılır

## Prezident İlham ƏLİYEV: "Onlarda məktəb və vətənpərvərlik hissini müəllimlər, ailə formalaşdırıb"

Otuz ilə yaxın Ermənistanın işğalı altında qalan torpaqlarımız 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun qəhrəmanlığı sayəsində azad edildi. 44 günlük Vətən müharibəsində qazandığımız Qələbə Azərbaycanın tarixində yeni bir dövrün - azad edilmiş torpaqlarımızın dirçəldilməsi və müasir infrastrukturun qurulmasının başlanğıcı oldu. "Qarabağ Azərbaycandır!" şüarını gerçəkliyə çevirən bu haqq savaşı həm də milli qürurumuzun, Vətən sevgisinin təntənəsi idi.

Ölkə başçısı İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə bu ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri Qarabağ torpaqlarının dirçəldilməsinə yeni nəfəs verdi. Reallaşdırılan layihələr, xüsusilə təhsilimizin Qarabağa qayıdışı bu bölgələrin həyatına yeni ruh qatdı.

Həyata keçirilən işlərin ən mühüm istiqamətlərindən biri təhsil infrastrukturunun qurulmasıdır. Çünki güclü dövlətin və davamlı inkişafın təməli məhz savadlı və vətənpərvər gənclərlə qoyulur. Müəllimlərin rolu isə bu prosesdə əvəzolunmazdır. Onlar yalnız bilik verən deyil, həm də vətənpərvər, cəsur və dövlətinə bağlı nəsil yetişdirən fədakarlardır. Bu baxımdan, təhsil sahəsində görülən işlər xüsusi əhəmiyyət daşıyır. Gələcəyin qurucuları olan gənclərin yetişməsi üçün sağlam, müasir və vətənpərvərlik ruhunda qurulan təhsil mühiti vacib şərtlərdəndir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həmin şəhər və kəndlərdə məktəb infrastrukturu yenidən qurulur, tikilən və ya əsaslı təmir edilən məktəblərin sayı durmadan artmaqdadır. Bu təhsil müəssisələri yalnız bilik məkanı deyil, həm də milli ruhun, Vətən sevgisinin və əxlaqi dəyərlərin təbliğ olunduğu müqəddəs mərkəzlərə çevrilməkdədir.

### Təhsilimizin dirçəlişi

Otuz illik həsrətdən sonra doğma yurd-yuvalarına qayıdan hər bir vətəndaş üçün bu torpaqlar yalnız yaşayış məkanı deyil, həm də kimlik, ruh və yaddaş deməkdir. İşğaldan azad olunan ərazilərimiz təkcə siyasi yox, həm də mənəvi anlamda Vətənimizin ürəyidir. Həmin el-obalarımızın əsl sakinləri doğma ocaqlarına dönürlər. Onlar gözəl infrastrukturu olan yenidən salınmış şəhər və kəndlərdə ən müasir üslubda tikilmiş evlərdə yaşayırlar, uşaqlar isə hər cür imkan və şəraitə, yüksək təlim texnologiyalarına malik məktəblərdə təhsil alırlar. Bu gün neçə-neçə təhsil işçisi paytaxtdakı müəllimlik fəaliyyətini könüllü olaraq Qarabağda inşa olunan məktəblərdə davam etdirir. Təhsil işçilərimiz azad edilmiş ərazilərə qayıdarkən yalnız vəzifələrinə deyil, həm də mənəvi missiyalarına sahib çıxırlar. Onlar həmin müəllimlərdir ki, bir vaxtlar məcburi köçkünlük həyatının ağrı-acısını yaşamış, amma bu çətinliklərə baxmayaraq milli ruhu qorumağı bacarmışlar. Bu gün müəllimlərimiz doğma torpaqlarına qürurla, inamla, sevgi ilə qayıdırlar.

İşğaldan azad olunan şəhər və kəndlərimizdə hər bir təhsil müəssisəsinin açılışı Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə baş tutur.

Təhsilə qayıdış Zəngilan rayonu Ağalı kənd tam orta məktəbi ilə başlasa da, bu gün artıq Tərtər rayonu Talış kənd, Laçın şəhər 2 nömrəli, Zabux kənd, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin öz xalqı adından hədiyyəsi olaraq inşa edilən Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli,Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına, Şuşa şəhəri 1 nömrəli, Ağdam rayonunun Kəngərli kənd tam orta məktəbləri, eləcə də körpələr evi-uşaq bağçaları və adlarını qeyd etmədiyimiz digər təhsil müəssisələri ilə davam etməkdədir. Şuşa, Xankəndi, Füzuli şəhərlərində, Xocalı və Ağdərə rayonlarında istifadəyə verilən təhsil müəssisələri və davamlı olaraq digər azad olunmuş ərazilərimizdə tikilən məktəblər, körpələr evi-uşaq bağçaları ölkə başçısı İlham Əliyev tərəfindən həmin ərazilərimizə köçən ailələrin uşaqlarının asudə vaxtlarının səmərəli təşkilinə və onların sosial müdafiəsinin gücləndirilməsinə, yüksək şəraitdə təhsil almalarına necə önəm verilməsinin bariz nümunəsidir.

Prezident İlham Əliyev mayın 10-da Ağdamın Kəngərli kəndinə köçən sakinlərlə görüşündə köçkünlərin ən çətin şəraitdə yaşadığını qeyd edərək onlara verdiyi sözü xatırlatdı: "Siz bilirsiniz ki, işğal dövründə köçkünlərlə mənim çoxsaylı görüşlərim olub, həm çadır şəhərciklərində, - onlara söz vermişdim ki, birinci prezidentlik dövrümdə bir dənə də çadır şəhərciyi qalmayacaq və artıq 2007-ci ildə bir dənə də qalmamışdı,- həm də yeni salınmış qəsəbələrdə, qəsəbələrin açılışında. Biz 300 minə yaxın o vaxtkı köçkünü gözəl evlərlə təmin etmişdik. O görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, torpaqlar azad olunandan sonra sizin üçün Qarabağda daha gözəl şərait yaradacağıq.

...Siz uzun illər ağır şəraitdə - ölkəmizin müxtəlif yerlərində yararsız evlərdə, yataqxanalarda, uşaq bağçalarında, müəyyən müddət isə çadır şəhərciklərində yaşamısınız. Bu gün isə gözəl kəndin timsalında yeniləşən Azərbaycanı görürük, bərpa olunan Qarabağı görürük. Göstəririk ki, bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir. Ancaq bu torpağın sahibi bu torpaqda qurub-yaradır".

Ölkə başçısı çıxışlarında hər zaman işğaldan azad edilmiş ərazilərdə təhsilin bərpası və inkişafının dövlət siyasətinin prioritet istiqaməti olduğunu diqqətə çatdırır.

İnşa olunan hər yeni təhsil müəssisəsi isə gələcək nəsil üçün etibarlı və sağlam təməlin yaradılması, yeni bir gələcəyin başlanğıcıdır.

### Müəllimlərimizin şərəfli missiyası

Azərbaycanın tarixində dönüş nöqtəsi olan 44 günlük Vətən müharibəsi xalqımızın iradəsini, gücünü və birlik ruhunu dünyaya nümayiş etdirdi. Bu qələbənin arxasında təkcə hərbi güc deyil, həm də milli ruh, Vətən sevgisi, təhsil və ailə tərbiyəsi dayanırdı. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında bu amillərin əhəmiyyətini vurğulayaraq, xüsusilə müəllimlərin gənc nəslin formalaşmasındakı rolunu yüksək qiymətləndirir. Dövlət başçısının sözləri ilə desək: "Sizin kimi müəllimlər igid gənclər yetişdirmisiniz. O gənclər ki, gedib sinələrini qabağa verib torpaqlarımızı düşməndən azad etdilər.

...Otuz il əzab-əziyyət içində - çadırda, istidə, soyuqda, vaqonun altında, yataqxanada, uşaq bağçasında yaşamısınız, amma inamınızı, iradənizi itirməmisiniz, belə oğullar yetişdirmisiniz. Onlar Bakıda, Bərdədə, Sumqayıtda yaşayıblar, bu bölgələri heç vaxt görməyiblər, amma gəliblər. Çünki torpaq çəkir. Onlarda vətənpərvərlik hissini sizin kimi analar, müəllimlər, məktəb və ailə formalaşdırıb. Bizi saxlayan bizim dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz və gənc nəsil yetişdirən ailə və məktəb olub".

Bəli, göründüyü kimi vətənpərvərlik sonradan öyrədilən deyil, uşaqlıqdan aşılanan bir dəyərdir. Bu dəyərin bünövrəsi ailədə qoyulsa da, məktəbdə möhkəmlənir və şəxsiyyətin formalaşmasında mühüm rol oynayır. Müəllimlər təkcə dərs deyən deyil, həm də milli kimliyi, tarixi yaddaşı və dövlətə bağlılığı öyrədən, gənc nəsli formalaşdıran mənəvi bələdçilərdir. Onlar şagirdlərə sadəcə riyaziyyat, ədəbiyyat və ya tarix öyrətmir, həm də vətəndaşlıq borcunu, milli qüruru və torpaq sevgisini aşılayırlar.

Dövlət başçısı dəfələrlə vurğulayıb ki, bizə yüksək intellektli, savadlı və eyni zamanda Vətənini sevən, onun uğrunda mübarizə aparmağa hazır olan gənclər lazımdır. Bu mənada müəllimlərin rolu hərbi silah qədər güclüdür, çünki müəllim ruhu formalaşdırır, ruh isə qalibiyyətin əsas şərtidir.

Müəllimlər bu yeni dövrdə təkcə pedaqoq deyil, həm də milli ideologiyanın daşıyıcılarıdır. Onlar gənclərə bilik verməklə bərabər, həm də onlara Vətən qarşısında məsuliyyət hissini, milli kimliyi, tarixi yaddaşı aşılayırlar. Bu gün müasir texnologiyalarla təchiz olunan məktəblərdə dərslər interaktiv formada keçirilir, amma təhsilin ruhu dəyişməz qalır. Və bu, Vətənə sədaqət, dövlətə bağlılıq və insani dəyərlərdir.

Məktəbdə şagirdlərə vətənpərvərlik təkcə dərsliklə yox, eyni zamanda müəllimin şəxsiyyəti, davranışı və nümunəsi də ötürülür. Müəllimin bircə cümləsi, bircə yanaşması illərlə unudulmur və bəzən bir ömür yoluna yön verir. Elə bu gün torpaqlarımız uğrunda canını fəda edən gənclərimiz də məhz orta məktəbdə müəllimlərinin söylədiyi "Vətən üçün yaşa", "Torpağı qorumaq şərəfdir", "Vətən, uğrunda ölən varsa vətəndir" kimi sözlərin təsiri ilə böyüyənlərdir.

Prezident İlham Əliyev təhsil işçilərinə hər zaman yüksək etimad göstərərək onların əməyini yüksək qiymətləndirir. Bu gün azad edilmiş ərazilərdə inşa olunan məktəblərdə müəllimlərin peşəkar fəaliyyəti və şagirdlərə yüksək səviyyədə təhsil vermələri üçün bütün imkanlar yaradılır.

### Əgər o gəncin qəlbində vətən sevgisi varsa, bilin ki...

Dövlət başçısı İlham Əliyev çıxışlarında qeyd edir ki, bu torpaqlarda möhkəm gələcək qurmaq üçün, ilk növbədə, sağlam düşüncəli, savadlı və vətənpərvər gənclər yetişdirilməlidir. Prezidentin ötən ilin sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşü zamanı etdiyi çıxışında bir sıra məqamları yenidən xatırlamaq tam yerinə düşür: "Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi. Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Bu günü bizə bəxş edən qəhrəman hərbçilərimizi hər zaman böyük minnətdarlıqla yad edirik...

...Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur. Sinəsini qabağa verən, ölümə gedən gənclər bir amalla yaşayırdılar ki, milli ləyaqətimizi bərpa edək və bunu etdik. Ona görə mənəvi-psixoloji üstünlük bir daha bizim ümumi üstünlüyümüzü göstərir. Müharibədən keçmiş ölkə kimi və Ali Baş Komandan kimi müharibənin nəticələrini şərtləndirən amillərə nəzər salaraq, təhlil edərək tam əminliklə deyə bilərəm ki, birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır. Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat - bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz".

Bəli, nəticə olaraq vətənpərvər gənclərin yetişdirilməsində müəllimlərimizin fədakarlıqları təkcə təhsil tariximizə yox, həm də qəhrəmanlıq salnaməsinə yazılır. Müəllim görünməz qəhrəmandır. Onun yetişdirdiyi şagird bir gün əsgər, həkim, mühəndis, diplomat və ya lider olur. Amma hansı sahədə olursa-olsun, əgər o gəncin qəlbində vətən sevgisi varsa, bilin ki, o sevgi ilk dəfə sinif otağında alovlanıb...

**Samirə KƏRİMOVA**

---

"Azərbaycan müəllimi" qəzeti Azərbaycan Gənc Müəllimlər Assosiasiyası (AGMA) ilə birgə həyata keçirdiyi "Çağdaş təhsildə təşkilatlanma: yeni nəsil tərbiyəsi" layihəsi çərçivəsində Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Hikmət Əlizadənin məqaləsini təqdim edir.

# Şəxsiyyət keyfiyyətlərinin və xarakterin formalaşma mərhələləri

**(III məqalə)**



Yeniyetməlik dövründə uşaqların psixologiyasında yeni xüsusiyyətlər yaranmağa başlayır. Bu xüsusiyyətlər yaşlılıq hissinin formalaşması ilə bağlıdır. İnkişaf səviyyəsindən asılı olaraq yaşlılıq hissi yeniyetmələrin hər birində fərqli məzmunda özünü təzahür etdirir.

Yaşlılıq hissi yeniyetmənin psixi həyatında özünəməxsus rol oynaması, ilk növbədə, onun özünü "yaşlı adam" kimi aparmağa başlamasında öz əksini tapır. Lakin V-VI siniflərdə bu, daha çox onların öz zahiri görkəmlərinə xüsusi fikir verməsi ilə əlamətdar olur. Yeniyetmələr dünyagörüşləri və ailə imkanlarının yol verdiyi qədər daha səliqəli geyinir və yaşlılar kimi danışmağa çalışırlar. Yaş artdıqca onlar yaşlıları daha çox təqlid etməyə başlayırlar. Bu zaman oğlanlar gücü, qızlar gözəlliyi fetişləşdirirlər. Oğlanlar daha güclü olmaq üçün idmana gedirlər, qızlar isə gözəl görünmək üçün saatlarla güzgünün qabağında durub, daha gözəl görünməyin "yollarını axtarırlar". Onların bu davranışına təkcə sadə və təbii proses kimi baxmaq olmaz, bu, həmçinin şəxsiyyətin formalaşması prosesidir. Bütün yeniyetmələr bu hisslərlə yaşayır və onların bir şəxsiyyət kimi inkişafı bu hisslərin fonunda baş verir. Məsələn, özünü "güclü hiss etmək" ilə "gücsüz hiss etmək", "gözəl hiss etməklə" "kifir hiss etmək" və s. yeniyetmələrin sinifdaxili münasibətlər sistemində özünəmüvafiq yer tutmasında və bu əsnada nüfuz əldə etməsində, şəxsiyyət keyfiyyətlərinin, o cümlədən dəyərlərin formalaşmasında mühüm rol oynayır. Bütün bunlar özünü onun üçün sinifdə "sosial inkişaf şəraiti"nin yaranmasını şərtləndirir.

Bu dövrdə yeniyetmələrin yaşlılara münasibətlərində dəyişikliklər yaranır. Nə qədər qəribə olsa da, bu münasibətlər fonunda onlar yaşlıların (valideynlərin, müəllimlərin və s.) hüquqlarını məhdudlaşdırır, özlərinin və yoldaşlarının hüquqlarını isə genişləndirirlər. "Ata-oğul (oğullar)", "ana-qız (qızlar)", "müəllim-şagird (şagirdlər)" arasında münaqişələr uşağın yeniyetməlik zamanı "yaşlanması" dövrünə təsadüf edir. "Yaşlanmağa" başlayan yeniyetmələr yaşlıların verdiyi tapşırıqları əvvəllər səylə yerinə yetirdiyi halda, indi icra etməkdən yayınmağa çalışırlar. Bu dövrdə yaşlıların onlara münasibəti mühüm əhəmiyyət kəsb edir. Məsələn, valideynlər onu (onları) himayə edirlər, yoxsa onun fəaliyyətinə nəzarəti artırır, qarşısına tələblər qoyurlar və s. Bu münasibətlər yeniyetmələrin yaşlılıq meyillərinə zidd olduğu üçün onları qane etmir. Yeniyetmələr daha çox özünüidarəyə üstünlük verirlər. Lakin özünüidarə qaydalarını bilmədiklərindən və ya onların özünüidarə qaydaları ilə yaşlıların özünüidarə qaydaları arasında olan fərqlər yeniyetmələrin tez-tez cəzalanmasını aktuallaşdırır. Bu, bir tərəfdən yaşlıların yeniyetmələrə uşaq kimi, digər tərəfdən yeniyetmələrin özlərini yaşlı kimi qiymətləndirməsinin nəticəsidir. Əlbəttə, bunun başqa səbəbləri də var.

Qiymətləndirmələr arasında fərqlər ziddiyyətlərin yaranmasına yol açır. Halbuki, yaşlılar yeniyetmələrin özünüqiymətləndirməsinə uyğun olaraq, onların hüquq və vəzifələrini, müstəqilliyini genişləndirdikdə, onları müxtəlif faydalı işlərinə cəlb etdikdə, onlara özünüidarə etməyi öyrədə, inkişafları üçün münasib şərait yarada bilərlər. Məişətimizdə belə təcrübələr var, bu təcrübələrdə uşaqların necə sürətlə püxtələşməsini də görmək olur. Təcrübəli valideyn və müəllimlər yeniyetmələrlə bərabərhüquqlu tərəfdaş kimi münasibətə daxil olub, gördüyü işlər haqqında məlumatlar əldə edir, dolayı yollarla (qızım sənə deyim, gəlinim sən eşit və s.) onlara yeni yollar göstərir, gördükləri işlərdə uğurlara imza atmasına şərait yaradırlar. Belə şəraitin yaradılması yeniyetmənin böyüklər aləminə daxil olmasını sürətləndirə bilir və daha dəqiq ifadə etsək, yeniyetmələrin daha tez böyüməsinə, ağıllanmasına, dünyanı dərk etməsinə, dəyərlərin mahiyyətini idrak etməsinə və s. yol açır.

**Haşiyə:** Amerikalı yazıçı, alim, ixtiraçı, dövlət xadimi Benjamin Franklin deyirdi ki, faciə tez qocalmaq deyil, gec ağıllanmaqdır. Uşaqların ağıllanması, şəxsiyyət keyfiyyətlərinin, dəyər və xarakterinin formalaşması üçün yaşlılar öz ətrafında onlara inkişafetdirici mühit yaratdıqda mümkün olur.

Amma uşaq üçün belə şərait yaradılmadıqda... onsuz da onlar böyüklər aləminə özləri daxil olurlar. Yaşlılar onlar üçün münasib şərait yaratmadıqda yoldaşları ilə yaşıdlar qrupunda yaşlılar mühitini yaratmağa (oxu: kompensasiya etməyə) çalışırlar. Amma bu qruplarda onların əldə etdikləri dəyərlərin mənfi çalarlarından heç kim sığortalanmayıb. Buna görə də yeniyetmələrlə həm evdə, həm də ailədə "yaşlı-yaşlı" münasibətlərinin yaradılması daha böyük əhəmiyyət kəsb edir. Müasir dövrdə yeniyetmələrlə məhz belə münasibət yaratmaq xüsusilə vacibdir. Onların sosiallaşmasında internet və ya digər sosial media vasitələri getdikcə daha böyük rol oynamağa başlayır. Uşaqlarda mənfi meyillərin yaranmasını istəmiriksə, onda onlarla yaşlı kimi münasibət qurmağa çalışmalıyıq.

Yeniyetməlik dövrü uşaqlıqdan yaşlılığa keçidin ilk mərhələsidir. Bu dövrdə o sadəlövh uşaq məntiqi və yaşlılıq iddiası arasında inkişaf edir. Fəaliyyəti bəzən "Don Kixot" qərarları kimi gülməli, bəzən ağıllı adam hərəkətləri kimi düşündürücü olur. O həyat haqqında məlumatlara malik olur, bu məlumatlar bəsit məzmun daşıyır, amma ona elə gəlir ki, hər şeyi bilir. Biz onu bilmədiklərini öyrənməyə istiqamətləndirdikdə, qarşısında problem situasiya yaratdıqda, o daha tez "yaşlılar aləminə" daxil ola bilir. Qeyd edək ki, yeniyetmələrin yaşlılar aləminə daxil olması onların öyrəndiklərini ağıl keyfiyyətləri ilə ölçməsi mərhələsidir. Valideynlərin və müəllimlərin yeniyetmələri düzgün idarəetməsi onların dünyanı ağıl ölçüləri ilə dərk etməsi üçün yeni üfüqlər açır. Xüsusən məktəbdə əldə etdikləri biliklər nəticəsində onlarda dəyərlərin formalaşması yeni məzmun kəsb edir.

Onun inkişaf səviyyəsi milli kimliyini dərk etməyə imkan verir. Milli kimliyini dərk etməsi tədricən Azərbaycançılıq ideyalarını və dövlət rəmzlərini mənimsəməsi ilə qarşılıqlı vəhdət təşkil etdikdə (bunu dərk etməyə valideynlər və müəllimlər şərait yaratmalıdır, yol göstərməlidir və s.), milli kimliyini ağıl ölçüləri ilə dərk etmiş olur. Zaman müstəvisində yeniyetmələr təlim prosesində yaşadığı bölgə və ölkə haqqında məlumatlar əldə edirlər. Valideyn və müəllimlər kömək etdikdə bu məlumatlar milli kimliyin dərk edilməsi müstəvisində onun bölgə və ölkənin müdafiəsində öz rolunu başa düşməsinə yol açır. Yeniyetmə artıq VII-VIII siniflərdə, xalq şairi Nəbi Xəzrinin sözləri ilə desək, "Azərbaycan mənim anamın anasıdır, mən onu müdafiə etməyə hazır olmalıyam" qənaətinə gəlməlidir.

Yuxarı siniflərə doğru irəlilədikcə, o, cəmiyyət-insan münasibətləri müstəvisində davranış mədəniyyətinin, insan hüquqlarının və azadlıqlarının mahiyyətini dərk etməyə başlayır. Müəllim və valideynlər onların cəmiyyət qarşısında şəxsi məsuliyyətini insan hüquqlarına hörmət müstəvisində dəyərləndirməsinə imkan yaratmalıdırlar. Davranış mədəniyyəti, insan hüquqları və azadlıqları haqqında biliklər onun digər insanların hüquq və vəzifələrinə hörmət nümayiş etdirməsində öz təsbitini tapması ilə nəticələnməlidir. Bu, onun insanlara münasibətinin ağıl ölçüləri ilə dəyərləndirilməsinin təcəssümüdür.

Zaman keçdikcə o yaşadığı mühitdə mədəni müxtəlif insanlarla (müxtəlif etnik qruplar, dillər, dinlər, irqlərə mənsub insanlar) birlikdə yaşadığının fərqinə varır. Müxtəlif mədəniyyətlərin qovşağında o birgə yaşayış qaydalarına əməl etməyə başlayır, ayrı-seçkiliyin yolverilməz olduğunu dərk edir. Dərk etdikdə cəmiyyət daxili münasibətlər sistemində özünə yer tapmağa başlayır.

Biz yeniyetmənin cəmiyyətdə uğur qazanması üçün zəruri olan dəyərlərin yaranması prosesinə diqqəti cəlb etdik. Dəyərlər insanı həyatı boyu müşahidə edir və insanın cəmiyyətdə sosial münasibətlərdə uğur qazanmasına yol açır. Amma təəssüf hissi ilə qeyd edək ki, yeniyetmələrin hamısı bu dəyərləri eyni vaxtda əxz edə bilmirlər. Bu, onların həyatında çətinliklərin yaranmasını şərtləndirir. Yeniyetmələrin hər birinin dəyərləri mənimsəyə-mənimsəyə böyüməsinə gedən yolun açarı valideynlərin və (daha çox) müəllimlərin əlindədir.

# Qarabağ Universiteti: dirçəlişin akademik zəmini

## İlk tədris ilinin nəticələri və perspektivlər






**Şahin BAYRAMOV,** *Qarabağ Universitetinin rektoru*

Dövlətin müəyyən etdiyi strateji inkişaf prioritetləri çərçivəsində işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa, yenidənqurma və dayanıqlı inkişaf prosesləri ardıcıl və sistemli şəkildə həyata keçirilir. Bu proses təkcə infrastrukturun bərpası ilə məhdudlaşmır, həm də regionun sosial-iqtisadi reinteqrasiyasını, insan kapitalının inkişafını və əhalinin dayanıqlı şəkildə məskunlaşmasını hədəfləyən kompleks yanaşmanı özündə ehtiva edir. Xüsusilə “Böyük Qayıdış” proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan quruculuq bölgənin dayanıqlı inkişaf modeli əsasında transformasiyasının təmin olunmasına xidmət edir.

Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli müvafiq Sərəncamı ilə azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınmaqla regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin - Qarabağ Universitetinin yaradılması strateji əhəmiyyət kəsb edir. Dövlət başçısının universitetin açılışında qeyd etdiyi kimi, “Qarabağ Universitetinin yaradılması tarixi hadisədir”.

Universitetin əsas missiyası - regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı mütəxəssislərin hazırlanması, Qarabağda tarixən mövcud olmuş təhsil ənənələrinin bərpası, eləcə də tədqiqat və innovasiyalar vasitəsilə dayanıqlı inkişaf proseslərinə töhfə verməsidir. Bu məqsədlə Qarabağ Universitetinin ali təhsil modeli müasir akademik yanaşmalara, yaşıl transformasiya prinsiplərinə və regional ehtiyaclara uyğunlaşdırılmış interdisiplinar proqramlar əsasında qurulur.

Əsas hədəfimiz regionun və bütövlükdə ölkənin dayanıqlı inkişaf gündəliyində mühüm yer tutan məsələlərin həllində fəal iştirak edən, sosial, iqtisadi və mədəni ekosistemin formalaşmasında və inkişafında drayver rolunu oynayan, cəmiyyətin rifahına xidmət edən aparıcı təhsil, tədqiqat və innovasiya mərkəzinə çevrilməkdir.

Dövlət başçımızın təşəbbüsü ilə yaradılan və birbaşa dəstəyi ilə inkişaf etdirilən Qarabağ Universiteti yalnız bir ali təhsil müəssisəsi kimi nəzərdən keçirilmir, həm də müasir və effektiv yanaşmaları, güclü tərəfdaşlıqları ilə Qarabağın və Şərqi Zəngəzurun innovativ, dayanıqlı və firavan gələcəyinin formalaşdırılmasına və gücləndirilməsinə akademik zəmin yaradacaq bir platforma olaraq dəyərləndirilir.

### Dövlətin dəstəyi və uğurlu başlanğıc

2024/2025-ci tədris ili Qarabağ Universiteti üçün yaddaqalan hadisələrlə zəngin bir dövr oldu. İstər universitetin qurulması, ilk tədris ilinə hazırlığı və açılışı, istərsə də payız və yaz semestrləri dövründə həyata keçirilən fəaliyyətlər dövlətin güclü dəstəyi və qayğısı, eləcə də Elm və Təhsil Nazirliyinin birbaşa iştirakı sayəsində ilkin uğurlu nəticələr verir. Atılan addımlar Qarabağ Universitetinin gələcək inkişafına təkan verərək, onun milli və beynəlxalq təhsil məkanında tanınmasına, nüfuzunun artmasına və layiqli yer tutmasına xidmət edir.

İlk tədris ilinə hazırlıq mərhələsində ən mühüm nailiyyətlərdən biri peşəkar və təcrübəli akademik-inzibati heyətin formalaşdırılması olub. Bununla yanaşı, müasir standartlara cavab verən tədris və sosial infrastruktur yaradılıb, qabaqcıl akademik məzmunlu ixtisas proqramları hazırlanıb və universitetin ölkə üzrə geniş tanıdılması təmin olunub.

Qürurla qeyd edə bilərik ki, keyfiyyətli tələbə qəbulu həyata keçirilib və dövlətin dəstəyi ilə universitet ilk tədris ilinə tam hazır vəziyyətə gətirilib. Əksəriyyəti nüfuzlu xarici universitetlərdə təhsil almış təcrübəli akademik və inzibati heyət işə götürülüb, orta balı 470 olan və 101 nəfəri 600-dən çox bal toplamış 1104 tələbə qəbul olub. Tədris prosesi müasir infrastrukturla təchiz olunmuş 3 tədris binasında, 6 fakültə (İncəsənət, İqtisadiyyat, Pedaqoji, Turizm, Mühəndislik, Humanitar və Sosial elmlər) üzrə, 27 ixtisasda yeni akademik məzmun əsasında təşkil olunub. Əlavə olaraq, müxtəlif ali təhsil müəssisələrində birinci tədris ilini müvəffəqiyyətlə başa vurmuş tələbələr arasında keçirilən müsabiqədə uğur qazanan 60 tələbə 4 ixtisas üzrə Qarabağ Universitetində SABAH qruplarında təhsillərini davam etdirmək imkanı qazanıb.

Tələbələrin akademik inkişafına dəstək məqsədilə müasir standartlara uyğun universitet kitabxanası istifadəyə verilib. Eyni anda 200 tələbəyə xidmət göstərə bilən kitabxanada Azərbaycan, türk, ingilis və rus dillərində 10000-dən artıq dərslik, dərs vəsaiti və digər ədəbiyyatlar toplanıb.

Xankəndi şəhərində 4 binada universitet əməkdaşları və ailələri üçün yaşayış şəraiti təmin olunub. Bütün tələbələr müasir kampus konseptinə uyğun şəraitdə 6 mənzil tipli yataqxanada yerləşdirilib.

2024-cü il 20 sentyabr tarixində, dövlət suverenliyinin bərpasının birinci ildönümündə Prezident İlham Əliyevin iştirakı ilə Qarabağ Universitetinin açılışı baş tutub. Bu, 2024-cü ilin unudulmaz və rəmzi məna daşıyan əlamətdar hadisələrindən biri kimi tarixə düşdü. Dövlət başçımızın qeyd etdiyi kimi, “Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir”. Prezident tələbə və müəllim heyəti ilə görüşü zamanı “Ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir” ifadəsini vurğulamaqla proqram xarakterli çıxışında universitetimizin inkişafı üçün aydın yol xəritəsi və strateji baxış təqdim etdi.

Beləliklə, yaradılmasından çox az müddət keçməsinə baxmayaraq, 2024-cü ilin sentyabrın 23-də Qarabağ Universitetinin ilk tədris ilinə sürətli və uğurlu start verməsi məhz dövlətimizin dəstəyi, gücü və iradəsinin təzahürüdür.

### Cari tədris ilində prioritet fəaliyyətlər

Qarabağ Universiteti həm dinamizmi, həm də uğurlu nəticələri ilə yadda qalacaq ilk tədris ilini başa vurmaq ərəfəsindədir. Bu dövrdə tədris planları və proqramları müasir çağırışlara uyğun şəkildə, mövcud qanunvericilik, qabaqcıl yerli və beynəlxalq təcrübələr əsasında yeni məzmunda tərtib olunaraq tətbiq edilib. Yalnız tədrisə deyil, elmi-tədqiqat və tələbəyönümlü sosial fəaliyyətlərə də xüsusi önəm verilib. Universitet qısa zamanda bir sıra faydalı tərəfdaşlıqlara imza atıb və beynəlxalq səviyyəli elmi platformalarda fəal iştirakı ilə özünün dinamik və əməkdaşlığa açıq inkişaf yolunu nümayiş etdirib.

Qarabağ Universitetində tələbəmərkəzli yanaşma əsasında müasir idarəetmə modelinin tətbiqi əsas prioritetlərdən biridir. Tələbələrin universitet həyatına daha fəal və motivasiyalı şəkildə qoşulmasına imkan yaradan, onların arzu və istəklərinə uyğun akademik mühitin formalaşdırılmasına xüsusi önəm verilir. Bu yanaşmadan irəli gələrək, tədrisin ilk ilinə start verilərkən, tələbələrin həm akademik, həm də sosial həyata inteqrasiyasını asanlaşdırmaq məqsədilə oriyentasiya günləri, şəhər infoturları və maarifləndirici infosessiyalar təşkil olunub.

Tələbələrin bilik və bacarıqlarını praktikada möhkəmləndirmək üçün xüsusi laboratoriyalar istifadəyə verilib. Fizika, Kimya, Mexatronika, Robototexnika, Kompüter və Qrafik dizayn, Kompüter və Proqramlaşdırma sahələri üzrə 6 müasir laboratoriya tədris prosesinə inteqrasiya edilib. Həmçinin tədris prosesində simulyativ dərslərə geniş yer verilir. Bu baxımdan, “Hüquqşünaslıq” ixtisası üzrə təhsil alan tələbələr üçün Xankəndi Şəhər Məhkəməsində təşkil edilən məhkəmə simulyasiyası xüsusi qeyd olunmalıdır. Belə dərslər tələbələrə hüquqi biliklərini sınaqdan keçirmək və hüquqi prosesləri real mühitdə təcrübədən keçirmək imkanı yaradır.

Tələbələrin öyrənmə prosesini daha məhsuldar, motivasiyalı və effektiv etmək məqsədilə “Tələbə biliyinin qiymətləndirilməsi və imtahan qaydaları” hazırlanaraq tətbiq olunub. Cari tədris ilində payız semestrinin aralıq imtahanları, payız imtahan sessiyası və yaz semestrinin aralıq imtahanları uğurla təşkil olunub. İmtahanlar fənlərin spesifikasına uyğun olaraq yazılı, qarışıq, şifahi, baxış və dinləmə formatlarında təşkil olunub.

Ümummilli Liderimiz Heydər Əliyevin əbədiyaşar ideyalarına və zəngin irsinə əsaslanmaqla Qarabağ Universitetində tələbə gənclərin milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda yetişdirilməsi əsas hədəflərimizdəndir. Möhtərəm Prezidentimizin universitetin açılışı mərasimində vurğuladığı kimi, “Birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır”. Bu məqsədlə, Vətənə sevgi, tarixi və mədəni irsə bağlılıq, sosial məsuliyyət hissi və dayanıqlı inkişaf düşüncəsini təşviq edən müxtəlif fəaliyyətlər reallaşdırılır. Payız semestrində 27 Sentyabr - Anım Günü, 8 Noyabr - Zəfər Günü, 12 Dekabr - Ümummilli Lider Heydər Əliyevin Anım Günü, 20 Yanvar - Ümumxalq Hüzn Günü, COP29 və “Yaşıl dünya naminə həmrəylik ili”nə, yaz semestrində isə Xocalı soyqırımı, Aprel döyüşləri, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü, “Konstitusiya və Suverenlik İli”, 2 Fevral - Azərbaycan Gəncləri Günü, Beynəlxalq Ana Dili Günü və digər əlamətdar tarixlərə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Tələbələrin yaradıcılıq və innovasiya potensialının inkişafı, xarici dilləri mükəmməl mənimsəməsi, analitik təfəkkür, kommunikasiya və digər yumşaq bacarıqlarının gücləndirilməsi istiqamətində məqsədyönlü işlər görülüb. Gənclərin asudə vaxtlarının faydalı təşkilinə yönəlmiş təlimlər, maarifləndirici görüşlər, idman turnirləri, intellektual yarışlar və konsert proqramları keçirilib, tələbə təşkilat və klublarının formalaşdırılması üçün müvafiq təşəbbüslər reallaşdırılıb. Tələbələr Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Baş Prokurorluq, Hesablama Palatası, Prezident Kitabxanası, Dövlət Vergi Xidməti, digər dövlət və özəl qurumlarla əməkdaşlıq çərçivəsində həyata keçirilən ortaq layihələrdə fəal iştirak ediblər. Bu kontekstdə, 2024-cü ilin 26-27 aprel tarixlərində Qarabağ Universitetində Qoşulmama Hərəkatı Gənclər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Simulyasiya Konfransı xüsusi maraqla qarşılanıb.

2024-cü ilin noyabr ayında tələbələrin ictimai, sosial, mədəni və iqtisadi həyatda fəallığını artırmaq məqsədilə Qarabağ Universitetində Tələbə Gənclər Təşkilatı təsis edilib. 2025-ci ilin mayında Qarabağ Universitetində Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (ATİAHİ) üzv təşkilatının - Həmkarlar İttifaqı Komitəsinin yaradılması universitetimizin sosial-mədəni həyatında əhəmiyyətli hadisələrdən hesab olunur.

Cari tədris ilində mentorluq proqramının fəaliyyətə başlaması universitetimizin həyatında önəmli yeniliklərdən sayılır. Bu proqram çərçivəsində universitetin təcrübəli akademik və inzibati heyət üzvləri mentor qismində çıxış edərək tələbələrlə bilik və təcrübələrini bölüşür, akademik və fərdi inkişaf məsələlərində gənclərə dəstək olurlar.

Eyni zamanda Qarabağ Universitetinin əməkdaşları akademik fəaliyyətlərində elmi istiqamətə xüsusi önəm verib, bir sıra beynəlxalq və yerli əhəmiyyətli elmi-praktik konfranslarda fəal iştirak ediblər. Həmçinin əməkdaşlar tədqiqat bacarıqlarının artırılması məqsədilə universitetdə təşkil olunan təlimlərə aktiv qoşulublar. Universitetimizin əməkdaşları tərəfindən “Scopus” elmi bazasında 14 məqalə dərc olunub. Bu məqalələr 6 ölkədən 22 universitetin tədqiqatçıları ilə birgə hazırlanıb. Müəlliflər arasında 12 xarici, 10 yerli universitetlərin tədqiqatçıları yer alır. Qürurverici haldır ki, bu 14 elmi məqalə BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədindən 10-na birbaşa elmi töhfə verir.

Azərbaycan Respublikasının Prezidentinin 7 fevral 2025-ci il tarixli müvafiq Fərmanına əsasən Qarabağ Universitetinin tabeliyində yaradılan “Qarabağ Universitetinin Klinikası” publik hüquqi şəxsinin fəaliyyətinin müasir tələblərə uyğun qurulması başlıca prioritetlərimiz sırasında yer alıb. Klinikanın Qarabağ Universitetində “Tibb” ixtisasları üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin etməsi, tibb sahəsində elmi-tədqiqatlar aparması, regionda əhalinin sağlamlığının qorunmasında iştirak etməsi nəzərdə tutulub.

### İlk tələbələrimiz və uğurlar

Qarabağ Universiteti yüksək bal toplayan gənclərin üstünlük təşkil etdiyi, keyfiyyətli və perspektivli bir tələbə kontingentinə malikdir. İlk tələbələrimizdən 101 nəfəri 600-dən, 385 nəfəri isə 500-dən çox bal toplayıb. 683,8 balla ən yüksək nəticəni göstərərək “Hüquqşünaslıq” ixtisasına qəbul olan bir tələbəmiz Prezident təqaüdünə layiq görülüb. Həmçinin fənn olimpiadası qalibi olan bir abituriyent “Elektrik və elektronika mühəndisliyi” ixtisasına müsabiqədənkənar qəbul edilib. Respublikamızın bütün bölgələrini əhatə edən tələbələrimizin 54 faizi oğlan, 46 faizi isə qızdır.

Qısa müddət ərzində tələbələrimiz bir sıra önəmli uğurlara imza atıblar. Bu nailiyyətlər arasında tələbələrimizin Gürcüstanda keçirilən Beynəlxalq Kollegial Proqramlaşdırma Müsabiqəsinin (ICPC) yarımfinalında və Misirdə təşkil olunan Ümumdünya Şəhərsalma Forumunda fəal iştirakını, eləcə də “Zəfərimiz əbədidir” adlı regional intellektual yarışda birincilik qazanmalarını xüsusi qeyd etmək olar. Eyni zamanda Gənclər Fondunun elan etdiyi qrant müsabiqəsində bir müəllim və bir tələbəmizin birgə təqdim etdiyi layihənin qalib gəlməsi müəllim-tələbə əməkdaşlığına uğurlu nümunədir.

Bundan əlavə, tələbələrimiz Konstitusiya Məhkəməsi tərəfindən təşkil edilən “Zəfər çalmış dövlətin Əsas Qanunu” mövzusundakı Hüquq olimpiadasında, Vəkillər Kollegiyası, Hüquq və İnsan Haqları İnstitutunun birgə təşkil etdiyi “Qalib Azərbaycan” adlı II Hüquq olimpiadasında, həmçinin SABAH tələbələri üçün keçirilən “İqlim dəyişikliyi hər birimizin məsuliyyətindədir” mövzusundakı esse müsabiqəsində fərqləniblər.

Respublikanın 30 ali təhsil müəssisəsinin təmsil olunduğu “GreenTech II” startap və yaşıl texnologiyalar müsabiqəsinin final mərhələsində qalib olan komandanın tərkibində Qarabağ Universitetinin tələbəsi də təmsil olunub.

Gənclər və İdman Nazirliyinin 2024-cü il üzrə elan etdiyi qrant müsabiqəsi çərçivəsində, Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və Vəkillər Kollegiyasının tərəfdaşlığı ilə “Femida Könüllüləri” Təşkilatı tərəfindən keçirilən “DİVAN” Milli Məhkəmə Simulyasiyasında Qarabağ Universitetinin tələbəsi qalib olub.

Qarabağ Universitetinin tələbələrindən ibarət komanda Bakı Dövlət Universitetində keçirilən Respublika Hüquq Olimpiadasında fəal təmsil olunub.

Həmçinin universitetimizin 13 tələbəsi 2025-ci ilin mayında Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilən 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində (Caspian Agro) startap məhsullarını uğurla təqdim ediblər.

Qarabağ Universitetinin tələbələri Elm və Təhsil Nazirliyinin, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının və ATİAHİ-nin birgə təşkilatçılığı ilə keçirilən və Ulu Öndərimizin anadan olmasının 102-ci ildönümünə həsr olunan bədii-yaradıcılıq müsabiqə-festivalının Heydər Əliyev Sarayında baş tutan yekun konsertində uğurla çıxış ediblər.

### Beynəlxalq və yerli əməkdaşlıqda mühüm addımlar

Qarabağ Universitetinin rəhbərliyi səviyyəsində ilk rəsmi xarici səfəri qardaş Türkiyəyə təşkil olunub. 2024-cü ilin oktyabrında baş tutan bu səfər çərçivəsində universitet Ankara şəhərində keçirilən “2024-2025-ci tədris ilinin açılış mərasimi”ndə təmsil olunub. Ankara Universiteti, Hacettepe Universiteti, Qazi Universiteti və Ankara Hacı Bayram Veli Universitetində (AHBVU) rektorlarla keçirilən görüşlər zamanı müxtəlif sahələr üzrə birgə akademik fəaliyyətlərin reallaşdırılması istiqamətində ilkin razılaşmalar əldə olunub. Qeyd edək ki, Qarabağ Universitetinin ilk tədris ilindən etibarən iki türkiyəli professor bir illik müddətə akademik fəaliyyətə cəlb olunub.

2024-cü ilin oktyabrında Qarabağ Universiteti Çinin Lanzou şəhərində təşkil olunan Kəmər və Yol Universitetləri Alyansının 2024-cü il Forumunda, noyabrında Tokioda keçirilən Beynəlxalq Universitetlər Assosiasiyasının beynəlxalq konfransında və İdarə Heyətinin iclasında fəal təmsil olunub.

2025-ci ilin 27 fevral - 1 mart tarixlərində elm və təhsil nazirinin rəhbərlik etdiyi və Qarabağ Universitetinin rektorunun da təmsil olunduğu nümayəndə heyətinin Türkiyəyə səfəri məhsuldar olub. Səfər zamanı nümayəndə heyəti Türkiyə Respublikasının Ali Təhsil Şurasının sədri, Mərmərə Universiteti, İstanbul Texniki Universiteti, Koç Universiteti, Gəbzə Texniki Universiteti və Yıldız Texniki Universitetinin rektorları ilə görüşlər keçirib, bu universitetlərin maddi-texniki bazası və laboratoriyaları ilə yaxından tanış olub.

2025-ci ilin aprelində Qarabağ Universitetində Türkiyənin Yıldız Texniki Universiteti, İstanbul Texniki Universiteti və Gəbzə Texniki Universitetinin nümayəndə heyətləri ilə əməkdaşlıq görüşü keçirilib. Görüşdə potensial əməkdaşlıq imkanları nəzərdən keçirilib, konkret istiqamətlər üzrə işbirliyinin həyata keçirilməsi üçün ilkin razılıq əldə olunub. Qarabağ Universiteti ilə Yıldız Texniki Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.

2025-ci ilin aprelində Qarabağ Universitetinin Klinikasının təşkilatçılığı ilə “Qarabağda gələcəyin tibb bacısı və həkim təhsili modeli” mövzusunda keçirilən beynəlxalq konfrans, may ayında isə AHBVU-nun Turizm, Qarabağ Universitetinin İqtisadiyyat və digər yerli universitetlərin müvafiq fakültələrinin tərəfdaşlığı ilə “Mədəni irs” mövzusunda təşkil olunan VI Beynəlxalq Səyahət və Turizm Dinamikası Konfransı mühüm əhəmiyyət kəsb edib.

Qarabağ Universitetinin tələbə, akademik və inzibati heyət üzvləri ilk tədris ili ərzində 4 qitədə layiqli şəkildə təmsil olunub. Türkiyə, Rusiya, Misir, Özbəkistan, İsrail, ABŞ, Almaniya, Gürcüstan, Çin və Portuqaliyada, eləcə də ölkəmizdə keçirilən beynəlxalq simpozium, forum, konfrans, festival, təlim, sərgi, müsabiqə və digər tədbirlərdə fəal iştirak ediblər.

Qarabağ Universiteti özəl sektorla əməkdaşlığa da start verib. Bu məqsədlə Azərbaycan Beynəlxalq Bankı (ABB) ilə əməkdaşlıq memorandumu imzalanıb. Memorandum çərçivəsində ABB tərəfindən adlı təqaüdlərin ayrılması, təlim və təcrübə proqramlarının təşkili və digər birgə layihələrin reallaşdırılması nəzərdə tutulub.

Eyni zamanda “Hüquqşünaslıq” ixtisası üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə Qarabağ Universitetinin rektoru Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvü seçilib və bu qurumla əməkdaşlıq memorandumu imzalanıb. Həmçinin Universitet Baş Prokurorluğun təşəbbüsü əsasında həyata keçirilən “ECOLEAD” layihəsinə qoşulub.

2025-ci ilin aprelin 8-də ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə “Yeni dünya nizamına doğru” mövzusunda 7-ci ADA Siyasi Forumunun ilk gününün Qarabağ Universitetində keçirilməsi cari tədris ilinin əlamətdar hadisələrindən olub.

Bundan əlavə, Qarabağ Universiteti ilə Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) arasında əməkdaşlıq əlaqələri qurulub və konkret əməkdaşlıq istiqamətlərini əhatə edən birgə fəaliyyət planı təsdiq edilib.

2025-ci ilin yanvar ayında AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu ilə Qarabağ Universiteti arasında elmi-tədqiqat və təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Əməkdaşlıq çərçivəsində Universitetdə “Azıx arxeoloji araşdırma və analizlər laboratoriyası” yaradılıb.

Həmçinin Qarabağ Regional Təhsil İdarəsi ilə əməkdaşlıq çərçivəsində bir sıra birgə fəaliyyətlər həyata keçirilib. Xankəndi şəhəri N.Gəncəvi adına 4 nömrəli tam orta məktəb, Şuşa şəhəri 1 nömrəli tam orta məktəb və Xocalı şəhəri 1 nömrəli tam orta məktəbdə şagird və müəllim kollektivi üçün konfranslar təşkil olunub.

### Növbəti tədris ilinə hazırlıq və perspektivlər

Elm və təhsil nazirinin “Qarabağ Universitetinin 2025-2026-cı tədris ilinə hazırlıq tədbirləri haqqında” müvafiq əmri əsasında fəaliyyət planı təsdiq edilib. Universitetin strukturunun təkmilləşdirilməsi, tələbə qəbulu proqnozu, yeni ixtisasların yaradılması və digər amillər nəzərə alınaraq fəaliyyət planı çərçivəsində növbəti tədris ilinin ehtiyacları dəyərləndirilib, müvafiq təkliflər hazırlanıb və icrasına başlanılıb.

2025-2026-cı tədris ili üzrə Qarabağ Universitetinə 1440 nəfər tələbə qəbulu planlaşdırılıb. Fakültələr üzrə tələbə qəbulu planı aşağıdakı kimi təklif edilib: Pedaqoji fakültə - 360 nəfər; Humanitar və sosial elmlər fakültəsi - 210 nəfər; İncəsənət fakültəsi - 150 nəfər; İqtisadiyyat fakültəsi - 240 nəfər; Turizm fakültəsi - 60 nəfər; Mühəndislik fakültəsi - 320 nəfər; Tibb fakültəsi - 100 nəfər. Növbəti tədris ilində Qarabağ Universitetində 10 yeni ixtisas - “Biologiya müəllimliyi”, “Kimya müəllimliyi”, “Coğrafiya müəllimliyi”, “Tarix müəllimliyi”, “Bəstəkarlıq”, “Musiqişünaslıq”, “Riyaziyyat”, “Data analitikası”, “Tibb bacısı işi” və “Tibb” ixtisasları üzrə kadr hazırlığı həyata keçirilməsi nəzərdə tutulub.

Növbəti tədris ilinin ehtiyaclarına uyğun olaraq universitetdə akademik və inzibati vəzifələrə işə qəbul prosesinə start verilib. Müvafiq vəzifələrin tutulması üzrə elanlar müntəzəm olaraq Qarabağ Universitetinin rəsmi saytında və sosial şəbəkə hesablarında geniş ictimaiyyətin diqqətinə çatdırılır. Əsas məqsəd Qarabağ Universitetinin fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkilinə imkan verəcək yüksəkixtisaslı peşəkar kadrların seçilməsidir.

Eyni zamanda qəbul olunacaq tələbələrin təhsil almaları və yaşayışı üçün əlavə tədris binalarının və yataqxanaların tikintisi və əsaslı təmiri işlərinə başlanılıb. Həmçinin işə götürüləcək akademik və inzibati heyət üzvlərinin də yaşayışının təmin olunması istiqamətində müvafiq addımlar atılır.

Cari ilin may ayından etibarən 2025/2026-cı tədris ili üçün Qarabağ Universitetinə tələbə qəbulu məqsədilə abituriyentlərlə təbliğat fəaliyyətlərinə başlanılıb.

Beləliklə, dövlətimizin güclü dəstəyi, səmərəli tərəfdaşlıqlar, tələbə və əməkdaşlarımızın nümayiş etdirdiyi həmrəylik və əzmkarlıq sayəsində Qarabağ Universiteti ilk tədris ilini uğurlu nəticələrlə başa vurmaq ərəfəsindədir. Bu çərçivədə Elm və Təhsil Nazirliyinin, eləcə də Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin davamlı dəstəyi xüsusi qeyd edilməlidir. Akademik və sosial sahələrdəki nailiyyətlər, yeni layihələr və əməkdaşlıqlar universitetin strateji məqsədlərinə doğru mühüm irəliləyişlərə zəmin yaradır. Əsas gözləntilərimizdən biri Qarabağ Universitetinin timsalında formalaşmaqda olan “postmünaqişə universitet inkişaf modeli” nümunəsini dünyaya təqdim etməkdir.



# Keyfiyyətli təhsil mühiti:

## lisey və gimnaziyaların uğur yolu

Ölkəmizdə istedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi təhsil sistemi qarşısında duran mühüm vəzifələrdən biri kimi daim diqqət mərkəzindədir. Bu sahədə dərin məzmunlu davamlı fəaliyyətin təşkili və uğurla həyata keçirilməsi prioritet hədəf kimi qarşıya qoyulub.

Son illərdə istedadlı uşaq və gənclərə diqqət və qayğının artırılması sahəsində görülən işlər bu sahədə ciddi uğurların əsasını qoyub. İstedadlı uşaq və gənclərin səmərəli təhsil almasını təmin etmək məqsədilə yeni tipli tədris müəssisələrinin şəbəkəsi genişləndirilib, lisey və gimnaziyalarda təhsilin məzmununun müasir tələblərə uyğunlaşdırılması istiqamətində yeni tədris plan və proqramları hazırlanaraq tətbiqinə başlanılıb. Bu cür təhsil müəssisələrinin maddi-texniki təminatının, pedaqoji kadr heyətinin tərkibinin ildən-ilə yaxşılaşdırılması, lisey və gimnaziyaların tədris planlarının şagird nailiyyətlərinin əldə olunmasına uyğunlaşdırılması bu sahədə mühüm keyfiyyət dəyişikliklərinə imkan yaradıb.

Hazırda Azərbaycanda mərkəzləşdirilmiş imtahanla şagird qəbulu həyata keçirilən 34 lisey və gimnaziya fəaliyyət göstərir. Onlardan 12 lisey və gimnaziya Bakıda, 22-si regionlarda yerləşir.

### Rəqabət yüksəkdir

Lisey və gimnaziyalarda ümumilikdə 18.970 şagird təhsil alır. Hər il bu müəssisələrə qəbul olmaq məqsədilə 30.000-dən artıq şagird imtahanda iştirak edir və onlardan təxminən 4.000 nəfəri qəbul olunur. Bu göstəricilərə əsasən qeyd edə bilərik ki, təhsil müəssisələrinə qəbul üzrə rəqabət kifayət qədər yüksəkdir. Bu da adıçəkilən təhsil müəssisələrində tədris prosesinin keyfiyyətinin göstəricisi hesab edilə bilər.

Lisey və gimnaziyaların şagirdləri hər il ölkənin ən nüfuzlu bilik yarışlarından biri sayılan, 70 minə yaxın şagirdin iştirak etdiyi Respublika fənn olimpiadalarında əhəmiyyətli nailiyyətlər əldə edirlər.

### Uğurların statistikası

Ölkəmizdə ənənəvi olaraq hər il keçirilən Respublika fənn olimpiadaları, müxtəlif bilik müsabiqələri və yarışlarında lisey və gimnaziya şagirdlərinin əldə etdiyi uğurlar sevindiricidir və artan dinamika ilə müşayiət olunur.

Statistikaya əsasən, 2023-cü ildə bu müəssisələrin şagirdləri Respublika fənn olimpiadaları üzrə ümumi qaliblərin 37.55%-ni, 2024-cü ildə 37.63%-ni, 2025-ci ildə isə 36%-ni təşkil edib.

Respublika fənn olimpiadaları şagirdlərin fənlər üzrə dərin biliklərin qiymətləndirilməsi və gələcək istedadların aşkara çıxarılması baxımından ölkənin ən nüfuzlu müsabiqələrindən biri hesab olunur. Müsabiqənin qalibləri həm də beynəlxalq olimpiadalara hazırlıq şansı əldə edirlər. Son illərin nəticələri göstərir ki, bu təhsil müəssisələrinin şagirdləri Respublika fənn olimpiadaları üzrə ümumi qaliblər arasında önəmli yer tutur: 2023-cü ildə qaliblərin 43.6%-ni lisey və gimnaziyaların şagirdləri təşkil edib, 2024-cü ildə isə rekord göstərici ilə 50%-ə yüksəldə biliblər. 2025-ci il üzrə də nəticələrin bu yüksək dinamikanı davam etdirəcəyi gözlənilir.

Bundan əlavə, son illərdə keçirilən Lütfi Zadə adına riyaziyyat məntiq olimpiadası şagirdlərin analitik düşüncə qabiliyyətini və məntiqi nəticə çıxarma bacarığını ölçən müsabiqələrindən biri kimi mühüm əhəmiyyət daşıyır. Lisey və gimnaziyalarımızın şagirdləri təhsilverənlərin məntiqi təfəkkürü və təhliletmə qabiliyyətini gücləndirən bu müsabiqənin ümumi qalibləri arasında da stabil şəkildə yüksək nəticələr göstəriblər: 2023-cü ildə qaliblərin 30.2%-i, 2024-cü ildə 30.7%-i bu müəssisələrin şagirdləri olub. 2025-ci il üzrə yekun mərhələnin nəticələri tezliklə məlum olacaq və bu dinamikanın davam edəcəyinə ümidlər böyükdür.

Əlavə edək ki, son 3 il ərzində beynəlxalq fənn olimpiadalarında ümumilikdə qazanılan medalların 53%-i bu müəssisələrin şagirdlərinin payına düşür.

Qeyd olunan təhsil müəssisələrinin şagirdləri eyni zamanda müxtəlif müsabiqələrdəki uğurları ilə fərqlənirlər. Belə ki, onlar "Sabahın alimləri", "Zəkaların mübarizəsi", "Qərbi Azərbaycana qayıdış", "Ən yaxşı təqdimat" kimi nüfuzlu müsabiqələrdə, eyni zamanda "STEAM Azərbaycan" layihəsində və digər yarışlarda fəal iştirak edir, yüksək nəticələr göstərirlər. Bu cür yarış və müsabiqələrdə şagirdlər intellektual inkişaf səviyyələrini və təhsil müəssisələrinin tədris keyfiyyətini bir daha nümayiş etdirirlər.

### Lisey və gimnaziyaların şəbəkəsi genişləndirilir

Beləliklə də ölkəmizdə təhsil sahəsində həyata keçirilən mütərəqqi dəyişikliklər keyfiyyətli və modern təhsil mühiti kimi lisey və gimnaziyaların şəbəkəsinin genişlənməsi ilə müşahidə olunmaqdadır. Artıq mövcud olan lisey və gimaziyalara əlavə olaraq regionlarda - Oğuz, Qobustan, Sumqayıt, Lənkəran, Mingəçevir kimi bir çox rayon və şəhərlərdə yeni liseylər yaradılır.

Regionlarda istedadlı şagirdlərin aşkara çıxarılması və inkişaf etdirilməsi məqsədilə son iki ildə 5 lisey yaradılıb və fəaliyyət göstərir. Ötən il 34 müxtəlif lisey və gimnaziyada təhsil almaq üçün 25 min nəfərə yaxın şagird müraciət edib və onlar arasından ən yaxşı 3 min şagird bu müəssisələrə qəbul olub.

Əlavə edək ki, 2025-2026-cı tədris ili üzrə Bakı şəhəri və ölkənin müxtəlif bölgələrində yerləşən, şagird qəbulu mərkəzləşdirilmiş imtahanla həyata keçirilən bir sıra lisey və gimnaziyalara qəbul prosesinə start verilir. Sözügedən lisey və gimnaziyalara ərizə qəbulu iyun ayının 5-də başlayacaq və 20 iyuna kimi davam edəcək.

**Oruc MUSTAFAYEV**

## Azərbaycan Memarlıq və İnşaat Universiteti – 50

# Modern tədris sistemləri qlobal inteqrasiya kontekstində



Son onillikdə qlobal təhsil sistemində mühüm dəyişikliklər baş verib. Dünyanın aparıcı universitetləri yeni metodikaların tətbiqi və innovativ yanaşmalarla tədris prosesini daha səmərəli və nəticəyönümlü etmək üçün davamlı olaraq islahatlar həyata keçirirlər. Rəqəmsallaşma, fərdiləşdirilmiş öyrənmə, interaktiv dərs metodları və beynəlxalq əməkdaşlıqlar təhsil sahəsində rəqabət qabiliyyətini artıran əsas istiqamətlərdəndir. Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) də bu qlobal dəyişikliklərə çevik reaksiya verərək, tədris prosesini müasir standartlara uyğunlaşdırmaq və beynəlxalq təhsil mühitinə inteqrasiya etmək istiqamətində ardıcıl addımlar atır. Bu il universitetin 50 illik yubileyi münasibətilə həyata keçirilən islahatlar daha da sürətlənib, tədris prosesinin modernləşdirilməsi və tədris metodlarının yenilənməsi istiqamətində bir sıra mühüm layihələr reallaşdırılıb. Bu gün biz AzMİU-nun tədris işləri üzrə prorektoru professor Akif Qasımovla universitetin müasir təhsil sistemlərinə inteqrasiyası, aparıcı universitetlərlə əməkdaşlıq və həyata keçirilən islahatlar barədə söhbət edəcəyik.

## 50 ildə formalaşan təcrübə

- *Akif müəllim, ilk olaraq AzMİU-nun 50 illik yubileyi münasibətilə həyata keçirilən islahatlar və onların tədris prosesinə təsiri barədə məlumat verərdiniz.*

- Əvvəla onu qeyd edim ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən 1975-ci ildə qoyulmuş və respublikamızın inşaat sektoruna yüksəkixtisaslı kadrlar hazırlayan universitetimiz bu il öz yarım əsrlik yubileyini keçirməyə hazırlaşır. Doğrudur, respublikamızda inşaat və memarlıq elminin əsası 1920-ci ildə Bakıda Politexnik İnstitutunun yaradılması ilə qoyulmuşdur. Son dövrlər elm və təhsil sahəsində qazanılan uğurlar Ümummilli Lider Heydər Əliyevin ölkəmizdə müəyyənləşdirdiyi təhsil strategiyası ilə sıx bağlıdır. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezident, Ali Baş Komandanımız İlham Əliyevin diqqət və qayğısı ilə universitetin maddi-texniki bazasının gücləndirilməsi, burada müasir təhsil mühitinin yaradılması ilə yüksəkixtisaslı mütəxəssislərin hazırlığına əlverişli zəmin yaranmışdır. AzMİU-nun 50 illik yubileyi təkcə tariximizin əlamətdar bir mərhələsi deyil, həm də universitetimizin rektoru, memarlıq doktoru, professor, Əməkdar memar Gülçöhrə Məmmədovanın rəhbərliyi ilə tədris prosesinin modernləşdirilməsi və beynəlxalq təhsil məkanına inteqrasiya istiqamətində böyük addımların atıldığı bir dövr oldu. Bu yubiley çərçivəsində həyata keçirilən islahatlar simvolik əhəmiyyət daşımaqla yanaşı, universitetin inkişaf strategiyasının davamı kimi qiymətləndirilməlidir.

Bu gün qürurla qeyd edə bilərik ki, AzMİU tarixində ən çox tələbə sayına çataraq 13500-dən çox gənci öz təhsil ailəsinə cəlb edib. Bu nailiyyət universitetimizin düzgün yolda olduğunu, ixtisaslarımızın rəqabətə davamlı olduğunu və tədrisin keyfiyyətinin yüksək səviyyədə təmin edildiyini bir daha sübut edir.

Əlbəttə ki, islahatlar yalnız bunlarla kifayətlənmir. Biz hər il müasir tələblərə uyğun tədris prosesini təkmilləşdirmək və dünya təhsil məkanına daha sıx inteqrasiya etmək üçün yorulmadan çalışırıq. Bu il isə 50 illik yubileyin yaratdığı xüsusi stimul sayəsində həyata keçirilən layihələr həm də tarixi əhəmiyyət daşıyır.

AzMİU-nun təhsil sisteminin qlobal standartlara uyğunlaşdırılması istiqamətində Türkiyə universitetləri vasitəsilə və birbaşa Qərb ali təhsil sisteminə inteqrasiya istiqamətində ciddi işlər görürük. Bu prosesin əsas məqsədi müəllimlərin bilik səviyyəsini və öyrətmə vərdişlərini daha da yüksəltməkdir. Bu istiqamətdə davamlı təlimlər və beynəlxalq təcrübə mübadiləsi həyata keçirilir.

Eyni zamanda, universitetimizin ixtisaslarının beynəlxalq akkreditasiyadan keçməsi bizim üçün mühüm əhəmiyyət daşıyır. Xüsusilə qeyd etmək istərdim ki, AzMİU-nun Memarlıq fakültəsi növbəti müddətə nüfuzlu RİBA akkreditasiyasından, İnşaat fakültəsinin "İnşaat mühəndisliyi" ixtisası bakalavriat və magistratura səviyyələrində və Nəqliyyat fakültələrinin "Nəqliyyat tikintisi mühəndisliyi" ixtisası isə İAAR-ın akkreditasiyasından uğurla keçib. Bu uğurlar beynəlxalq səviyyədə tədris keyfiyyətinin tanınmasının bir göstəricisidir. Növbəti tədris ilində isə daha 5 ixtisasın beynəlxalq akkreditasiyadan keçirilməsi planlaşdırılır.

Tədris prosesində qiymətləndirmə sistemini də təkmilləşdiririk. Hazırda daha individual yanaşmaya keçid üzərində çalışırıq ki, hər bir tələbənin fərdi potensialını daha yaxşı dəyərləndirə bilək. Bu da tədrisin keyfiyyətinin artırılması və tələbəyönümlü yanaşmanın gücləndirilməsi baxımından çox vacibdir.

Bütün bu islahatlar AzMİU-nun müasir dövrün tələblərinə cavab verən və beynəlxalq təhsil mühitində öz mövqeyini möhkəmləndirən bir ali təhsil ocağına çevrilməsinə xidmət edir.

### "Dünyanın aparıcı universitetlərinin müasir tədris metodlarını mənimsəməyi hədəfləyirik"

- *Hazırda dünyanın aparıcı universitetlərində tətbiq olunan müasir tədris metodları hansılardır və AzMİU bu təcrübələri necə mənimsəyir?*

- Dünyanın aparıcı universitetləri, xüsusilə memarlıq, inşaat və mühəndislik ixtisasları üzrə, müasir tədris metodlarını daim təkmilləşdirərək, tələbələrə daha interaktiv və təcrübəyə əsaslanan öyrənmə mühiti yaradırlar. Məsələn, ABŞ-nin Massaçusets Texnologiya İnstitutu (MIT) və Stanford Universiteti kimi qabaqcıl təhsil ocaqları layihə əsaslı öyrənmə (Project-Based Learning) və problem əsaslı öyrənmə (Problem-Based Learning) yanaşmalarını geniş tətbiq edirlər. Bu metodlar tələbələrə real layihələr üzərində işləmək və kompleks problemləri həll etmək bacarığı qazandırır.

Memarlıq yönümlü ixtisasların tədrisində London Universitet Kolleci (UCL) və Delft Texniki Universiteti (TU Delft) tələbələrin yaradıcılığını və tənqidi düşünmə qabiliyyətini inkişaf etdirmək üçün rəqəmsal modelləşdirmə və virtual reallıq texnologiyalarından geniş istifadə edirlər. Bu yanaşma tələbələrə müasir dizayn alətləri ilə işləmək və layihələri daha realist və innovativ formada təqdim etmək imkanı verir.

İnşaat mühəndisliyi sahəsində isə Zürix Texnologiya İnstitutu (ETH Zurich) və Kaliforniya Texnologiya İnstitutu (Caltech) kimi universitetlərdə süni intellekt, böyük verilənlər (Big Data) və tikinti məlumatlarının modelləşdirilməsi (BIM) tədris prosesinə uğurla inteqrasiya olunub. Bu, tələbələrə müasir mühəndislik problemlərini rəqəmsal texnologiyaların köməyi ilə həll etmə bacarığı qazandırır.

AzMİU olaraq biz də bu qabaqcıl təcrübələri diqqətlə öyrənir və tədris prosesimizdə tətbiq etmək üçün bir sıra işlər görürük. Xüsusilə memarlıq və inşaat sahəsində rəqəmsal texnologiyaların istifadəsinə böyük önəm veririk. Bu məqsədlə, tədris proqramlarına BIM texnologiyaları, rəqəmsal dizayn və modelləşdirmə dərsləri daxil edilib. Müəllimlərimiz isə mütəmadi olaraq beynəlxalq təlimlərdə iştirak edir, tədris vərdişlərini təkmilləşdirirlər.

Bundan əlavə, tələbələrimizə real layihələr üzərində işləmək imkanı yaratmaq üçün sənaye tərəfdaşlarımızla sıx əməkdaşlıq edirik. Layihə əsaslı tədris modelini daha da genişləndirərək, tələbələrə nəzəri biliklərini təcrübədə tətbiq etmək şansı yaradırıq. Həmçinin daha əvvəl də qeyd etdiyim kimi, qiymətləndirmə sistemimizi fərdi yanaşma prinsipi üzərində qurmağa çalışırıq ki, hər bir tələbənin fərdi inkişafını daha dəqiq dəyərləndirə bilək.

Bu istiqamətdə davamlı olaraq təkmilləşməyi və dünyanın aparıcı universitetlərinin müasir tədris metodlarını mənimsəməyi hədəfləyirik. AzMİU-nun uğur strategiyası məhz müasir tədris sistemlərini qlobal standartlara uyğunlaşdırmaqdan keçir.

### "Əsas məqsədimiz rəqabətə davamlı universitet profilimizi inkişaf etdirməkdir"

- *Universitetin beynəlxalq təhsil məkanına inteqrasiyası istiqamətində hansı addımlar atılır və hansı yeniliklər gözlənilir?*

- Bizim əsas məqsədimiz Azərbaycan Memarlıq və İnşaat Universitetini beynəlxalq təhsil məkanında layiqli təmsil etmək, qlobal təcrübəni mənimsəmək və rəqabətə davamlı universitet profilimizi inkişaf etdirməkdir.

Beynəlxalq əlaqələrimizin genişləndirilməsi istiqamətində ciddi işlər görürük. Universitetimizin xarici universitetlərlə əməkdaşlıq dairəsi ildən-ilə böyüyür və hazırda 100-dən çox əməkdaşlıq etdiyimiz xarici universitet mövcuddur. Bu tərəfdaş universitetlərlə birgə elmi-texniki konfranslar təşkil edir, bilik və təcrübə mübadiləsi aparırıq. Eyni zamanda, müəllim və tələbələrimizin beynəlxalq mübadilə proqramlarında iştirakını təmin edirik ki, bu da tədrisin keyfiyyətini yüksəltmək baxımından böyük əhəmiyyət daşıyır.

Son illərdə xüsusilə ikili diplom müqavilələrinin sayını artırmağa çalışırıq. Ötən ay AzMİU dünyanın aparıcı universitetlərindən biri ilə sayca 9-cu ikili diplom müqaviləsini imzaladı. Bu müqavilələr tələbələrimizə eyni zamanda həm bizim universitetin diplomunu, həm də nüfuzlu universitetlərin - İngiltərənin Vestminster Universitetinin, Türkiyənin İstanbul Texniki Universitetinin, İspaniyanın Koruno Universitetinin, İtaliyanın Milan Politexnik Universitetinin və digərlərinin diplomlarını almaq imkanı yaradır.

Bizim üçün bu əməkdaşlıqlar təkcə diplomların tanınması baxımından deyil, həm də qabaqcıl tədris təcrübəsini mənimsəmək baxımından vacibdir. Məsələn, "İnşaat mühəndisliyi" ixtisasımız üzrə tədris planı və metodologiya tamamilə İstanbul Texniki Universitetinin müvafiq proqramı ilə eynidir. Bu, tələbələrimizə qlobal standartlara uyğun bilik və bacarıqlar qazandırır. Müqavilələrə əsasən, həm bizim tələbələr xaricdə təhsil alır, həm də tərəfdaş universitetlərin tələbələri bizə gəlib iki il ərzində tədris prosesində iştirak edirlər.

Beynəlxalq təhsil layihələri çərçivəsində də fəal iş aparırıq. Müəllim və tələbələrimizin beynəlxalq konfranslarda, qlobal əhəmiyyət kəsb edən platformalarda iştirakını təmin edirik.

### "AzMİU-da elektron universitet sistemi yaradılıb"

- *Müasir tədris prosesində rəqəmsallaşma və onlayn tədris imkanlarının rolu haqqında fikirlərinizi bölüşərdiniz. AzMİU bu sahədə hansı yeniliklər həyata keçirir?*

- AzMİU olaraq rəqəmsallaşma prosesinə xüsusi diqqət yetiririk. Universitetimizdə elektron universitet sistemi yaradılıb və bu sistem tədris prosesinin idarə olunmasında, sənədləşmə və məlumat mübadiləsində, həmçinin tələbə-müəllim əlaqələrinin gücləndirilməsində mühüm rol oynayır. Bu platforma vasitəsilə tələbələr dərs cədvəllərini, mühazirə materiallarını və qiymətləndirmə nəticələrini asanlıqla əldə edə bilirlər.

Distant tədris təcrübəmiz də kifayət qədər zəngindir. Artıq uzun müddətdir ki, lazım gələndə ixtisaslar və fənlər üzrə onlayn tədris imkanlarını uğurla həyata keçirə bilirik. Bununla yanaşı, rəqəmsal transformasiyanı yalnız texniki və texnoloji baxımdan deyil, həm də fəlsəfi yanaşma kimi mənimsəməyə çalışırıq. Universitet rəhbərliyi rəqəmsal transformasiyanın tədrisə, idarəetməyə və ümumiyyətlə, ali təhsil sisteminə gətirə biləcəyi riskləri və imkanları daim dəyərləndirir. Bu baxımdan, rəqəmsallaşmanın idarəetmə proseslərinə inteqrasiyasını təkmilləşdirir, müəllim və tələbələrimizi rəqəmsal bacarıqlarla təmin etmək üçün müvafiq təlimlər təşkil edirik.

AzMİU-da rəqəmsallaşmanın davamlı inkişafı üçün texniki infrastrukturu yeniləyir, müasir proqram təminatları və platformalar tətbiq edirik. Bu da rəqəmsallaşmanın yaratdığı imkanları maksimum dərəcədə dəyərləndirmək və tədrisin keyfiyyətini daha da artırmaq məqsədi daşıyır.

Hesab edirəm ki, gəcəkdə də yeni texnologiyaların mənimsənilməsi və rəqəmsal tədris modellərinin daha geniş tətbiqi prioritetlərimiz arasında olacaq.

### "Tədris prosesini daha da təkmilləşdirmək niyyətindəyik"

- *Akif müəllim, tədris prosesində səmərəliliyi artırmaq üçün gələcəkdə hansı yeniliklər və layihələr planlaşdırılır?*

- Qoyulan məqsədlərə çatmaq üçün və ilk olaraq tədris prosesində səmərəliliyi artırmaq üçün gələcəkdə bir sıra mühüm yeniliklər və layihələr həyata keçirməyi planlaşdırırıq. Müasir təhsilin tələbləri daim dəyişir və biz də bu dəyişikliklərə uyğunlaşaraq universitetimizin tədris prosesini daha da təkmilləşdirmək niyyətindəyik.

Əvvəla, tədrisin rəqəmsallaşdırılması istiqamətində yeni addımlar atmağı planlaşdırırıq. Elektron universitet platformamızı daha da genişləndirərək, tələbə və müəllimlər üçün daha rahat və interaktiv istifadə imkanları yaradacağıq. Rəqəmsal qiymətləndirmə sistemini təkmilləşdirərək, tələbələrin bilik və bacarıqlarının obyektiv dəyərləndirilməsini təmin edəcəyik.

İkili diplom proqramlarının sayını artırmaq və yeni beynəlxalq tərəfdaşlarla əməkdaşlıq qurmaq da prioritetlərimiz arasındadır. Gələcəkdə Avropa və Asiyanın aparıcı universitetləri ilə yeni müqavilələr imzalamağı, tələbə və müəllim mübadiləsini daha da genişləndirməyi planlaşdırırıq. Bu, tələbələrimizə qlobal təhsil təcrübəsindən faydalanmaq və beynəlxalq əmək bazarında rəqabətədavamlı kadrlar kimi yetişmək imkanı verəcək.

Eyni zamanda, layihə əsaslı öyrənmə metodunu daha da inkişaf etdirməyi hədəfləyirik. Tələbələrimizin real layihələr üzərində işləməsi, sənaye tərəfdaşlarımızla birgə tədqiqatlara cəlb olunması onların praktik biliklərini artıracaq. Bununla yanaşı, startap ekosistemini universitetdə gücləndirmək və innovativ ideyaların dəstəklənməsi üçün yeni texnoparkların yaradılmasını da nəzərdə tuturuq.

Tədris metodikalarının yenilənməsi də diqqət mərkəzindədir. Müəllimlərin pedaqoji bacarıqlarının inkişafı üçün beynəlxalq təlim proqramlarına qatılmalarını təmin edəcək, yeni tədris texnologiyalarının tətbiqi ilə bağlı davamlı seminarlar təşkil edəcəyik.

AzMİU-nun gələcək inkişaf strategiyasında tələbələrin fərdi inkişafına daha çox diqqət yetirmək də mühüm yer tutur. Hər bir tələbənin fərdi tədris yolunu müəyyənləşdirmək və onların potensialını maksimum dərəcədə üzə çıxarmaq üçün xüsusi mentorluq və dəstək proqramları tətbiq edəcəyik.

Beləliklə, yeniliklər və layihələr vasitəsilə tədris prosesini daha çevik, rəqabətədavamlı və müasir dövrün tələblərinə uyğun təşkil etməyi hədəfləyirik.

**Nicat ABDULLAYEV**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Bakı Slavyan Universiteti

## Kafedralar üzrə müdir vəzifəsini tutmaq üçün

## MÜSABİQƏ ELAN EDİR:

1. İctimai elmlər kafedrası üzrə - 1 yer;
2. Slavyan xalqlarının ədəbiyyatı kafedrası üzrə - 1 yer.

**Qeyd:** müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər yalnız 1,4,5,6 və 7-ci bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər):




1. Rektorun adına ərizə;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi;
3. Tərcümeyi-hal;
4. Ali təhsil haqqında diplomun surəti;
5. Elmi dərəcə haqqında diplomun surəti;
6. Elmi ad haqqında diplomun surəti;
7. Elmi və elmi metodiki işlərin siyahısı;
8. Kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**Ünvan:** Bakı AZ 1014, S.Rüstəm küçəsi 33.
**Telefon:** (012) 599-08-70, daxili nömrə - 208.

**REKTORLUQ**

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-64-00
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4925 **Sifariş** 1122
**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Bakı şəhər** 264 nömrəli məktəb-liseyi 2024-cü ildə bitirmiş Əliyeva Nuridə Elşən qızına verilmiş E-651039 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayon** Əmirallar kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Fərhadov Ərdəşir Azər oğluna verilmiş E-063608 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Birinci Biləcik kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Məmmədov İlkin Həmzət oğluna verilmiş B-162825 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Ləkçıplaq kənd 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Səmədova (Qasımzadə) Şəhanə Eldar qızına verilmiş B-296983 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Kazımov Səmid Ağalar oğluna verilmiş B-558660 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 134 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş İsmixanova Ayla Nuru qızına verilmiş tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Rüstəmov Xəyyam Tahir oğluna verilmiş A-501547 nömrəli tam orta təhsil haqqında attestat və 2007-ci ildə verilmiş B-356500 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Abdulxalıqov Əli Atif oğluna verilmiş A-557782 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş İbrahimov Coşqun İbadət oğluna verilmiş A-352498 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 310 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Novruzov İmran Oqtay oğluna verilmiş E-145082 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Göybulaq kənd ümumi orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Surxayev Rauf İsrafil oğluna verilmiş A-450278 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 20 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Zəkəryəyeva (Səlimova) Arzu Yaşar qızına verilmiş B-056491 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 5 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Hüseynli Ülvi İlqar oğluna verilmiş A-557768 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən rayon** Xoşbulaq kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Məmmədov Kamal Bayram oğluna verilmiş 030720 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 176 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Quliyeva Zinyət Namiq qızına verilmiş E-469995 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 146 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Baxşəliyev Səxavət Qadir oğluna verilmiş A-222114 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**18 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2012-ci ildə Nəzərov Fikrət Çingiz oğluna verilmiş A-012449 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şuşa Musiqi Kolleci** tərəfindən 2012-ci ildə Xəlilov Vasif Habil oğluna verilmiş AA-018070 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 323 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Muxtarlı Orxan Əhliman oğluna verilmiş A-300109 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi Dövlət Pedaqoji Kolleci** tərəfindən 2022-ci ildə Qəhrəmanova Minayə Mətləb qızına verilmiş AA-159953 nömrəli diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Zəhmətabad kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Olcay Vüsalə Vaqif qızına verilmiş A-334624 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən rayon** Güneykənd kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Quluyev Eltac Yaqub oğluna verilmiş C-310972 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 26 nömrəli tam orta məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Səfərəliyeva Elmira Binnət qızına verilmiş C-526398 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2007-ci ildə Cəbrayılov Rahib Sahib oğluna verilmiş BB-I-005483 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 11 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Kazımova (Səfərova) Afaq Tanrıverdi qızına verilmiş B-149054 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Günəşli kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Nəsirli Aslan Cəlal oğluna verilmiş A-324530 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 4 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Bayramova Lamiyə Qubad qızına verilmiş A-640985 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Səmədov Elmar Elşən oğluna verilmiş C-077422 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 39 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Kərimov Kamil Qabil oğluna verilmiş A-434961 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Xanabad kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Tağıyeva (İbrahimova) Turanə Vəlyəddin qızına verilmiş B-104399 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Camalov Arzuman Səxavət oğluna verilmiş B-268518 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Çaytumas kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Rzayev Pərviz Xanlar oğluna verilmiş A-421900 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2022-ci ildə İbrahimov Ruslan Yaruz oğluna verilmiş C-153651 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2023-cü ildə Yunusov Elmir Ehtibar oğluna verilmiş AT-009462 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 109 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Bayramova Lalə Azad qızına verilmiş A-204675 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Qarayeri qəsəbə 1 nömrəli məktəb-liseyin IX sinfini 2000-ci ildə bitirmiş Məmmədova Aidə Rasim qızına verilmiş B-387667 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Texnikumu** tərəfindən 2004-cü ildə Cəfərova Elnarə Cəfər qızına verilmiş BB-II-006078 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2004-cü ildə Qəhrəmanova Aynurə Razin qızına verilmiş B-012865 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Xızı rayon** Sitalçay kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Babayev Nurlan Elşən oğluna verilmiş A-181202 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şürük kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Qurbanova Xanım Aydın qızına verilmiş AK-600149 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Kərgəlan kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Əlizadə Əmrah Sənail oğluna verilmiş A-356801 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qədirli kənd ümumi orta ümumtəhsil məktəbin VIII sinfini 1987-ci ildə bitirmiş Sadıqov Seyfəddin Murtuza oğluna verilmiş A-253080 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 9 nömrəli tam orta məktəbin XII axşam sinfini 2000-ci ildə bitirmiş Mirzəliyeva Şəhla Cəlal qızına verilmiş A-346144 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Şükürlü kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Əliyev Vüsal Oktay oğluna verilmiş B-646746 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci** tərəfindən 2017-ci ildə Musayeva Ülkər Ağasəməd qızına verilmiş AA-101851 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 12 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədli Aytən Zülfüqar qızına verilmiş B-604393 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Nəsibov Həzrətəli Hacımurad oğluna verilmiş A-649753 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli məktəb-liseyi 1994-cü ildə bitirmiş Heydərova Sənubər Heydər qızına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Quluzadə Nofəl Vidadi oğluna verilmiş B-670315 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2012-ci ildə Seyidli Ağasəid Sadıq oğluna verilmiş B-235098 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Zərbalıyev Xəyal Səmid oğluna verilmiş A-287963 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Əlizadə Kamil Azər oğluna verilmiş E-274710 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** C.Rüstəmov adına tam orta məktəbi 2024-cü ildə bitirmiş İbrahimov Nicat Samir oğluna verilmiş E-738814 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 84 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş İbrahimova Jalə Sanil qızına verilmiş A-671971 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 81 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Ramazanova Mehriban Mehti qızına verilmiş A-243021 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Qasımzadə Türkan Tofiq qızına verilmiş A-696389 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Həsənov İdrak Əkrəm oğluna verilmiş A-557769 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 11 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Qasımova Ramella Mürşüd qızına verilmiş 499148 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Məmmədli Ağalar Akif oğluna verilmiş C-322493 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Hüseynov Hüseyn Nizami oğluna verilmiş E-210383 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kolleci** tərəfindən 2017-ci ildə Hüseynova Gülər Fazil qızına verilmiş AA-105500 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 8 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Babayeva Samirə Yavər qızına verilmiş B-642395 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Ləj kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Rzayeva Züleyxa Qafur qızına verilmiş 037893 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti nəzdində Sumqayıt Dövlət Texniki Kolleci** tərəfindən 2016-cı ildə Verdiyeva Nazilə Bürhan qızına verilmiş AA-084682 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.